DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 01 (387) / YANVAR 2024-CÜ İL



Son 20 ilin tarixi göz qabağındadır və əsas məsələ ondadır ki, 2003-cü ildə Azərbaycan xalqı düzgün seçim etmişdi. Çünki hesab edirəm ki, müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi. Çünki o vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqləmişdi, yəni, Heydər Əliyev siyasəti davam etdirildi. Əgər tarix başqa istiqamətdə getsəydi, bilmək olmaz, xalqımız, dövlətimiz hansı bəlalar, faciələrlə üzləşə bilərdi. Hər halda, müstəqilliyimizin ilk iki ili əyani şəkildə göstərir ki, güclü lider olmadan və düşünülmüş siyasət olmadan istənilən ölkə, xüsusilə gənc müstəqil ölkə çox ciddi təhlükələrlə üzləşə bilər. 2003-cü ildə əsası 1993-cü ildə qoyulmuş siyasətə bir daha dəstək verildi. Hesab edirəm ki, bugünkü reallıqları biz 2003-cü illə yox, 1993-cü illə müqayisə etməliyik, çünki məhz o tarixdən başlayaraq Azərbaycan inkişaf yoluna qədəm qoydu, sabitlik təmin edildi, vətəndaş müharibəsinə son qoyuldu və ölkəmiz beynəlxalq təcriddən çıxdı. 1993-2003-cü illərin hadisələrinə nəzər salsaq görərik ki, məhz bu illər ərzində bugünkü dövlətçilik prinsipləri bərqərar olundu və Azərbaycanda vətəndaş cəmiyyəti yaradıldı, eyni zamanda, xalq-iqtidar birliyi artıq önəmli bir amilə çevrildi.

Son 20 ilin tarixinə gəldikdə isə hər şey göz qabağındadır. Əgər biz bu haqda geniş danışsaq, yəqin ki, bütün müsahibəni buna həsr etməli olacağıq. Sadəcə olaraq, onu demək istəyirəm ki, bugünkü Azərbaycan, sözün əsl mənasında, dünya miqyasında güclü ölkələr sırasındadır. Hesab edirəm ki, bu, həm beynəlxalq aləmdə, həm regionda, eyni zamanda, daxili siyasət prioritetlərinin düzgün seçilməsində bir çox ölkələr üçün nümunə ola bilər. Bu, təkcə mənim fikrim deyil, mənim bəzi həmkarlarım da bu barədə kifayət qədər açıq danışıblar.

Bu gün ölkə qarşısında duran yeni vəzifələr yeni dövrün vəzifələridir. Biz əsas vəzifəni, siz də qeyd etdiyiniz kimi, bir neçə ay bundan əvvəl həll etmişik, ölkəmizin suverenliyini tam bərpa etmişik və sentyabr hadisələri, əlbəttə ki, ümumi kontekstdən çıxarıla bilməz. Yəni, sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi. Bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq. Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır.

**Prezident İlham Əliyev**
Yerli televiziya kanallarına verdiyi müsahibədən
10 yanvar 2024-cü il

## İSLAM DİNİNƏ AİD İBADƏT YERLƏRİNƏ VƏ ZİYARƏTGAHLARA TƏYİN OLUNMUŞ DİN XADİMLƏRİNİN ATTESTASİYASI ELAN EDİLİR

Attestasiyada iştirak edəcək din xadimləri (siyahısı əlavə olunur) 30.01.2024-cü il tarixindən 01.03.2024-cü il saat 18:00-dək aşağıdakı sənədləri elektron qaydada sened@scwra.gov.az ünvanına və ya kağız daşıyıcıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə (Bakı şəhəri, Səbail rayonu, Əhməd Cavad küçəsi 16, AZ 1001) təqdim etməlidirlər.

Attestasiyada iştirak üçün din xadimi tərəfindən aşağıdakı sənədlər elektron qaydada və ya kağız daşıyıcıda Komitəyə təqdim edilir:

-Şəxsiyyət vəsiqəsinin surəti və ya bu barədə dövlət informasiya ehtiyatlarından çıxarış;
-Tərcümeyi-hal;
-Dini ali və orta ixtisas təhsil haqqında sənədin notarial qaydada təsdiqlənmiş surəti və ya bu barədə dövlət informasiya ehtiyatlarından çıxarış;
-Sağlamlıq haqqında arayış;
-Narkoloji dispanserdən arayış;
-Ruhi-əsəb dispanserindən arayış;
-Məhkumluq barədə arayış;
-Foto (3x4) (4 ədəd);
-Ərizə.

Tələb olunan sənədlərdən əlavə namizəd özünün elmi-pedaqoji və yaradıcılıq fəaliyyəti barədə sənədləri də təqdim edə bilər.

Attestasiyada iştirakla bağlı sənədlərin qəbulu üçün müəyyən edilmiş son müddət bitdikdən sonra attestasiyanın keçirilməsi vaxtı və yeri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin internet saytında yerləşdiriləcəkdir.

**Qeyd:** *Din xadimi üzrlü səbəb olmadan və ya üzrlü səbəbdən attestasiya komissiyasının iclasına gəlmədikdə, attestasiyadan keçirilməmiş hesab edilir.*

**Əlaqə nömrələri:**
(012) 497 02 53
(012) 492 62 29
(012) 437 31 15
(077) 209 60 70



# M.Q.QURBANLININ 2-Cİ DƏRƏCƏLİ "VƏTƏNƏ XİDMƏTƏ GÖRƏ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Mübariz Qəhrəman oğlu Qurbanlı 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 7 yanvar 2024-cü il

# AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Zəngin tolerantlıq ənənələri ilə tanınan Azərbaycanda ayrı-ayrı xalqların və dinlərin mənsubları yüz illərdir ki, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşayırlar. Biz cəmiyyətimizin üstün keyfiyyətlərindən olan etnik-dini müxtəlifliyi dövlətçiliyimizin misilsiz nailiyyəti kimi qiymətləndirir, ölkəmizdə hökm sürən demokratik birgəyaşayış mühitinin qorunub saxlanılmasını, humanizm və dözümlülük prinsiplərinə əsaslanan mütərəqqi ictimai dəyərlərin təbliği və təşviqini dövlət siyasətimizin prioritet istiqamətlərindən biri hesab edirik.

Təqdirəlayiq haldır ki, xristian həmvətənlərimiz nümunəvi dövlət-din münasibətlərinin yaratdığı geniş imkanlardan yararlanaraq özünəməxsus adət-ənənələri, dil və mədəniyyəti yaşadır, ölkəmizdə həyata keçirilən böyük quruculuq işlərində, ictimai-siyasi həyatımızın bütün sahələrində digər etiqadların nümayəndələri ilə birlikdə yaxından iştirak edirlər.

Əziz həmvətənlər!

Milad bayramı yeniliyi, paklığı, mərhəmət və xeyirxahlıq kimi ülvi hissləri özündə təcəssüm etdirir. Bu əziz gün münasibətilə bir daha hamınıza bayram təbriklərimi yetirir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 5 yanvar 2024-cü il

# AZƏRBAYCANDA DİNİ QURUMLARA MALİYYƏ YARDIMI GÖSTƏRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların fəaliyyətini dəstəkləmək, habelə multikultural dəyərlərin daha da inkişaf etdirilməsi və yüksək tolerantlıq mühitinin qorunması məqsədilə qərara alıram:

1. Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 2,0 (iki) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350,0 (üç yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350,0 (üç yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 350,0 (üç yüz əlli) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 350,0 (üç yüz əlli) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 350,0 (üç yüz əlli) min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fonduna 350,0 (üç yüz əlli) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 19 yanvar 2024-cü il

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ GÜRCÜSTAN MÜSƏLMANLARI İDARƏSİNİN RƏHBƏRİ İLƏ GÖRÜŞÜB

Yanvarın 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin dəvəti ilə Azərbaycana səfərə gələn Gürcüstan Müsəlmanları İdarəsinin (GMİ) rəhbəri şeyx Faiq Nəbiyevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

GMİ-yə rəhbər seçilməsi münasibətilə şeyx Faiq Nəbiyevi təbrik edən DQİDK sədri gələcək fəaliyyətində ona uğurlar arzu edib. Mübariz Qurbanlı bildirib ki, Azərbaycan-Gürcüstan əməkdaşlığı mehriban qonşuluq, dostluq və strateji tərəfdaşlıq prinsiplərinə əsaslanır. Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan iki dövlət arasındakı münasibətlər Prezident İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin məqsədyönlü fəaliyyəti sayəsində yeni mərhələyə yüksəlib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfərə diqqət çəkən Komitə sədri Gürcüstanın hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini deyib.



Son dövrdə müvafiq sahədə Gürcüstanla münasibətlərin inkişaf tempindən məmnunluq ifadə edən M.Qurbanlı Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin rəhbəri Zaza Vaşakmadzenin ölkəmizə, habelə Azərbaycan nümayəndə heyətinin ötən il Gürcüstana etdiyi səfərləri həmin əlaqələrin canlanmasına təkan verən amil kimi qiymətləndirib. İki qurum arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalandığını qeyd edib.

Mübariz Qurbanlı Azərbaycanın malik olduğu nümunəvi multikulturalizm və tolerantlıq modelindən söhbət açıb. Bildirib ki, ölkəmizdə bugünədək 995 dini qurum dövlət qeydiyyatına alınıb. Konfessional baxımdan qeydiyyata alınmış dini icmaların 958-i İslam, 37-si isə qeyri-islam təmayüllüdür. Ölkə ərazisində 2258 məscid mövcuddur. Habelə, respublikada 16 kilsə və 7 sinaqoq fəaliyyət göstərir.

GMİ-nin rəhbəri şeyx Faiq Nəbiyev qəbula görə təşəkkürünü ifadə edərək Azərbaycanın nümunəvi birgəyaşayış modelinin önəminə diqqət çəkib. Azərbaycan və Gürcüstan arasındakı dostluq münasibətlərinin özünü bütün sahələrdə göstərdiyini bildirib. Fəaliyyəti dövründə dini sahədə əlaqələrin daha da inkişaf edəcəyinə inamını ifadə edib.

Qeyd edək ki, görüşdə nümayəndə heyətinin üzvləri, Dövlət Komitəsi və tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun rəsmi şəxsləri ilə yanaşı, Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, müfti Salman Musayev də iştirak edib.

# KOMİTƏ SƏDRİ: ABŞ DÖVLƏT DEPARTAMETİNİN AZƏRBAYCANLA BAĞLI BƏYANATINI QƏRƏZLİ SAYIR VƏ RƏDD EDİRİK




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ABŞ Dövlət Departamentinin bir neçə ölkəni, o cümlədən Azərbaycanı sözdə dini etiqad azadlığının ciddi şəkildə pozulmasına və ya buna dözümlülüyünə görə özünün "xüsusi izləmə siyahısı"na daxil etməsinə münasibət bildirib.

Komitə sədri Mübariz Qurbanlı APA-ya açıqlamasında söyləyib ki, Amerika Birləşmiş Ştatlarında Beynəlxalq Din Azadlığı Komissiyası (BDAK) adlanan bir qurum var. Komissiya hər il dünya ölkələrindəki dini durumla bağlı hesabat hazırlayır: "Sözdə beynəlxalq səviyyədə dini azadlıqların pozulmasını monitorinq edərək Prezidentə, Dövlət katibinə və Konqresə müvafiq tövsiyələr verməklə məşğul olan BDAK 1998-ci ildə ABŞ-da müstəqil federal hökumət komissiyası kimi təsis edilib. Komissiya üzvləri Prezident, Nümayəndələr Palatasında və Senatda Demokrat və Respublikaçı liderlər tərəfindən təyin edilir.

Dövlət Departamenti həmin hesabat əsasında ayrı-ayrı ölkələrdəki dini durumla bağlı açıqlama verir. Beynəlxalq Din Azadlığı Komissiyası neçə ildir ki, hesabatlarında Azərbaycana qarşı qərəzli, yanlış məlumatlar yayır. Dəfələrlə bu Komissiyanın yaydığı hesabatlarla bağlı müvafiq açıqlamalar verilib, onların göstərdikləri heç bir fakta söykənməyən, şayiə xarakterli, uydurma məsələlərlə bağlı mövqeyimiz onların diqqətinə çatdırılıb, görüşlər keçirilib, bu məsələlər müzakirə edilib. Beynəlxalq Din Azadlığı Komissiyası 2023-cü ildə ölkəmizlə bağlı dekabrda geniş xüsusi hesabat yayıb. Hesabatdakı bütün məsələlər tərəfimizdən geniş şəkildə təhlil olunub. Həmin Komissiyaya məktub göndərərək hesabatda qaldırılan məsələlərin doğru olmadığını və qərəzliliyini maddə-maddə onların diqqətinə çatdırıb etirazımızı ifadə etmişik. ABŞ-nin Dövlət Departamentinin mətbuatda yayılan bəyanatında Azərbaycanın "xüsusi izləmə siyahısı"na daxil edilməsi də həmin Komissiyanın hazırladığı sənədə istinad edir. Dediyim kimi, həmin Komissiyanın sənədinin də tamamilə böhtan olduğu tərəfimizdən bildirilib. Azərbaycanı "izləmə siyahısı"na daxil etmək ifadəsi özü yanlış və gülüncdür. ABŞ-nin Dövlət Departamenti səviyyəsində saxta məlumatlar əsasında belə fikrin səsləndirilməsi bir daha Amerikanın ikiüzlü siyasətinin bariz nümunəsidir. Bu, Azərbaycana qarşı böhtandan başqa bir şey deyil".

Komitə sədri deyib ki, bütün dünya ölkələri içərisində Azərbaycan dini tolerantlıq və multikultural dəyərlər baxımından örnək kimi tanınıb, nümunəvi ölkələrdən biri sayılır: "Bunu yalnız biz demirik, bunu ölkəmizə gələn, buradakı dini mühiti öyrənən, o cümlədən xarici ölkələrdə keçirdiyimiz tədbirlər, görüşlər zamanı Azərbaycan haqqında geniş məlumatı olan hər bir şəxs deyə bilir. Azərbaycan dünyəvi, tolerant, multikultural ölkədir. Onu da qeyd edim ki, adıçəkilən Komissiyanın 2023-cü ilin dekabr ayında yaydığı açıqlamadakı məqamların qərəzli olması ilə bağlı Azərbaycanda olan qeyri-müsəlman icmalarının aparıcı qurumları xüsusi bəyanat yayıblar və bunu etiraz olaraq həmin Komissiyaya göndəriblər. Eyni zamanda, Azərbaycanda olan ayrı-ayrı dini konfessiyaların rəhbərləri də həmin vaxt mövqelərini ortaya qoyublar. İndi Dövlət Departamentinin, Beynəlxalq Din Azadlığı Komissiyasının hazırladığı qərəzli hesabata istinad edərək bu cür açıqlama verməsi tərəfimizdən tamamilə rədd edilir, bu, qəbuledilməzdir. Hesab edirik ki, bütün bunlar Azərbaycana, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasına yönəlik uğurlu addımlarını həzm edə bilməyənlərin ölkəmizə qarşı atdığı qərəzli addımlarından biridir. Əgər dini baxımdan izləmə lazımdırsa, bu baxımdan ən izləniləsi ölkələrdən biri Ermənistandır. Bu gün ABŞ-nin ermənipərəst mövqedə dayanan bəzi siyasi dairələrinin görməli olduqları ölkələrdən biri Ermənistan olmalı idi. Lakin erməniləri himayə edənlər onu görmək əvəzinə, Azərbaycana hücum edirlər. Monoetnik, monodin olan Ermənistanda ayrı-ayrı din nümayəndələrinin təqib edilməsi faktlarını heç kim gizlədə bilməz. 30 il ərzində 20 faiz ərazimizi işğal altında saxladığı zaman həm müsəlman, həm də digər dinlərə, o cümlədən Qafqaz Albaniyasına aid dini abidələrə qarşı vandalizm aktı törədənin Ermənistan olduğunu hamı bildiyi halda, Azərbaycanı izləmə siyahısına daxil etmək nə ədalətə, nə insanlığa, nə də siyasətə yaraşır".

Mübariz Qurbanlı vurğulayıb ki, Azərbaycanda dini sabitlik hökm sürür: "Müxtəlif dini konfessiyalar arasında harmonik və birgə fəaliyyət, birgə bəyanatlar, açıqlamalar verilir. Müsəlman dini icmaları ilə qeyri-müsəlman dini icmalarının birgə fəaliyyət göstərdiyini, ümumilli, ümumdövlət məsələlərində birgə olduqlarını hər zaman görürük. Vətən müharibəsi dövründə də bunu gördük. Azərbaycanda dini mühitə xaricdən müdaxilə etmək, dinlərarası, məzhəblərarası qarşıdurma yaratmaq istəyənlər hər zaman iflasa uğrayıblar. Ona görə ki, Azərbaycanda dini mühit ənənələrə və tolerantlığa söykənir. Dövlət Departamentinin həmin Komissiyanın məlumatlarına istinadən bu cür fikirlər səsləndirməsi, dini mühitimizlə bağlı qərəzli mövqe nümayiş etdirməsi qəbuledilən deyil. Komissiyada erməni lobbisinin nümayəndələrinin olduğunu, onların məxsusi şəkildə bu cür qərəzli informasiyalar hazırladığını və erməni lobbisinin təsirlərini görə bilərik. Bizim sözügedən Komissiyanın hesabatına qarşı faktlarla bənd-bənd hazırladığımız müddəalarda qərəzlər sübuta yetirilib. Biz Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi olaraq, bununla bağlı öz mövqeyimizi Komissiyaya göndərmişik. Dövlət Departamenti vasitəsilə yayılan məlumatlara da öz qəti etirazımızı rəsmi şəkildə ifadə edəcəyik. Dini baxımdan izlənməli olan ölkələrdən biri bəlkə də elə Amerika özüdür. Çünki ABŞ-də müsəlmanlara və digər dini icmalara, habelə qaradərililərə qarşı nə qədər hadisələrin olduğu hamıya bəllidir. ABŞ-li hüquq müdafiəçilərinin məlumatlarına görə, 2021-ci ildə ABŞ-də dini dözümsüzlük zəminində yəhudi və müsəlmanlara qarşı törədilmiş 1005 cinayət faktı qeydə alınıb. Eləcə də 2022-ci ildə 6720 müsəlman dini ksenofobiyaya məruz qalıb. Anti-islam əhval-ruhiyyəsinin həyəcanverici həddə çatması barədə məlumatlar Amerika reallıqlarının kiçik bir hissəsini əks etdirir. Həmin Komissiyanın özü Amerikada bir alət rolunu oynayır, bu alətdən də başqa ölkələrə təzyiq göstərmək üçün istifadə edilir. Bu cəhdlər əbəsdir!"

# DQİDK YANINDA İCTİMAİ ŞURANIN YENİ TƏRKİBDƏ İLK İCLASI KEÇİRİLİB

Yanvarın 12-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Komitə yanında İctimai Şuranın yeni tərkibdə üzvləri ilə görüşüb.

Komitə sədri DQİDK yanında İctimai Şuraya seçilmiş üzvləri təbrik edib və fəaliyyətlərində uğurlar arzulayıb. Mübariz Qurbanlı "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 816-IVQ nömrəli Qanununun qəbul olunmasının və qeyri-hökumət təşkilatlarının cəmiyyətdə oynadığı rolun əhəmiyyətindən danışıb. Eyni zamanda, Dövlət Komitəsi və tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu, Azərbaycan İlahiyyat İnstitutunun vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstər-



diyini vurğulayıb. Komitə sədri DQİDK-nın fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, qurum ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı əlaqələrin təşkili, dövlət siyasətinin formalaşması və qərarların qəbulu zamanı ictimai rəyin və vətəndaşların qanuni maraqlarının nəzərə alınması istiqamətlərində uğurlu fəaliyyətin təmin ediləcəyinə əminliyini ifadə edib.

Daha sonra İctimai Şuranın yeni tərkibdə ilk iclası keçirilib. İctimai Şuranın təşkilati məsələləri ilə bağlı rəy və təkliflər səsləndirilib. İctimai Şuraya üzvlər arasında səs çoxluğu ilə "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə sədr, "İslahatçı Gənclər" İctimai Birliyinin sədri Fərid Şahbazlı sədr müavini, "Gənc Diplomatların Peşəkarlığının İnkişafına dəstək" İctimai Birliyinin icraçı direktoru Məhsəti Hüseynova isə katib seçilib.

# MÜBARİZ QURBANLI ŞİRVANDA VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİNİ DİNLƏYİB

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı yanvarın 23-də Şirvan şəhəri, Hacıqabul, Salyan, Neftçala və Biləsuvar rayonlarından olan vətəndaşların müraciətlərini dinləyib.

Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin Şirvan şəhərində yerləşən abidəsi



ziyarət olunaraq önünə gül dəstələri qoyulub.

Qəbula gələn vətəndaşlar dini icmaların qeydiyyatı, dini maarifləndirmə işinin genişləndirilməsi, İslam dininə aid ibadət yerlərinə din xadiminin təyinatı, habelə digər məsələlərlə bağlı müraciətlər ediblər.

Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri dinlənilib, ərizələri qəbul edilərək müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ KOLLEGİYASININ İCLASI KEÇİRİLİB





Yanvarın 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Kollegiyasının 2023-cü ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Kollegiya iclasını Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı giriş sözü ilə açaraq 2023-cü ildə Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda sosial-iqtisadi, siyasi, diplomatik sahələrdə bir çox ciddi uğurlara imza atıldığını, bu uğurların təməlində ölkəmizdə hökm sürən demokratik şərait, vətəndaş cəmiyyəti, xalq-hakimiyyət vəhdətinin böyük əhəmiyyətinin olduğunu qeyd edib. Qazanılmış zəfərlər sırasında ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası, erməni separatizminə son qoyulması vurğulanıb. 2023-cü ilin ölkəmizdə “Heydər Əliyev İli” elan edilməsinin əhəmiyyətinə də diqqət çəkən Komitə sədri Bakı və regionlarda Ulu Öndərin zəngin irsinin əhatəli təbliğinə həsr olunan yüzlərlə tədbirin keçirildiyini, sənədli filmlərin çəkildiyini, o cümlədən kitabların nəşr edildiyini bildirib. Ümummilli Liderin müəyyən etdiyi yolun Azərbaycanı böyük uğurlara apardığını qeyd edən M.Qurbanlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə sistemli və ardıcıl xarakterli uğurlu layihələrin həyata keçirildiyini, vətəndaşların dini etiqad azadlığının təminatı sahəsində də atılan addımların müsbət nəticələr verdiyini, həmçinin dini sahəyə diqqət və qayğı ənənəsinin davam etdirildiyini söyləyib. Ötən il Prezident cənab İlham Əliyev, birinci xanım Mehriban Əliyevanın Şuşada Yuxarı Gövhər Ağa və Saatlı, Bakı şəhəri Nərimanov rayonu, “Cümə” məscidlərinin açılışında iştirak etmələrini, ölkədəki dini konfessiyaların fəaliyyətini dəstəkləmək məqsədilə dini qurumlara maliyyə yardımının göstərilməsini, Azərbaycan İlahiyyat İnstitutunun nəzdində Bakı İlahiyyat Kollecinin yaradılmasını dövlətin milli-mənəvi və tolerant dəyərlərin, o cümlədən İslam ənənələrinin qorunması ilə bağlı ardıcıl siyasətinin təzahürü kimi qiymətləndirib.

DQİDK, tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu, Azərbaycan İlahiyyat İnstitutunun ötənilki fəaliyyətinə toxunan M.Qurbanlı dini icmaların fəaliyyətinə dəstəyin göstərilməsi, dini təhsilin gücləndirilməsi, milli-mənəvi dəyərlərimizə yad ideoloji təlimlərin yayılmasının qarşısının alınması istiqamətində reallaşdırılan layihələr barədə söz açıb. Komitə ilə Səudiyyə Ərəbistanı Krallığının İslam Məsələləri, Çağırış və İrşad Nazirliyi, Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyi, Qırğız Respublikasının Dini İşlər üzrə Dövlət Komissiyası arasında imzalanan memorandumların önəmini xatırladıb.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev Agentliyin 2023-cü ildə fəaliyyəti barədə məlumatı diqqətə çatdırıb. Bildirib ki, dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi məqsədilə hər ay dini icma sədrlərinin iştirakı ilə iclaslar təşkil olunur. Agentlik, həmçinin vaxtaşırı bölgələrdəki ibadət yerlərində dini durumu yaxından öyrənib, məzhəb ayrı-seçkiliyi zəminində baş verə biləcək halların vaxtında qarşısının alınması istiqamətində profilaktik tədbirlər həyata keçirib. Qurumun rəhbəri onu da bildirib ki, din xadimlərinin biliklərinin artırılması məqsədilə Sarvanlar, Şərur və Babək rayon məscidlərində qadın və kişilərdən ibarət təkmilləşdirmə kursları təşkil edilib, ötən il kurslarda ümumilikdə 175 nəfər iştirak edib. Hazırda təkmilləşdirmə kurslarında 45 nəfərin təlimi davam etdirilir.

Dövlət Komitəsinin 2023-cü ildə fəaliyyəti barədə hesabatla çıxış edən sədr müavini Gündüz İsmayılov bildirib ki, ötən il Komitədə 2 dini icma dövlət qeydiyyatından keçib. Fəaliyyət göstərən 995 dini qurumdan 958-i İslam, 37-si (xristian – 26; yəhudi – 8; krişna – 1; bəhai – 2 ) qeyri-islam təmayüllü dini qurumlardır. Nəzarət markası ilə markalanmış dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarda), audio və video materialların, mal və məmulatların, dini məzmunlu başqa məlumat materiallarının satışı üzrə ixtisaslaşdırılmış satış məntəqələrinin yaradılması ilə əlaqədar 2 müraciətə müsbət cavab verilib. Hazırda ölkədə 45 ixtisaslaşdırılmış satış məntəqəsi fəaliyyət göstərir. 2023-cü il ərzində idxalla bağlı Komitənin dinşünaslıq ekspertizasına daxil olan müraciətlərə diqqət çəkən Gündüz İsmayılov qeyd edib ki, 4,875 adda dini məzmunlu ədəbiyyat ekspertizadan keçirilib. 938 adda (730,339 ədəd) dini təyinatlı ədəbiyyata isə nəzarət markaları verilib.

“İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası”na əsasən görülmüş işlər barədə də məlumat verən sədr müavini ötən ildə Komitə tərəfindən müsahibələrdən uğurla keçən 137 nəfərin (35 qadın və 102 kişi) məscid və ziyarətgahlara imam, imam müavini, dini ayinlərin icraçısı-müəzzin və qadın dini ayinlərin icraçısı vəzifələrinə təyin olunduğunu, 179 nəfərin fəaliyyətinə xitam verildiyini, habelə 29 nəfər din xadiminin rotasiya qaydasında vəzifəsi və iş yerlərinin dəyişdirildiyini deyib.

O, eyni zamanda Dövlət Komitəsinin milli-mənəvi dəyərlərimizin təbliği, tolerant və multikultural ənənələrimizin təşviqi, ölkədəki dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, vətəndaşlarımızın, xüsusilə gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin, o cümlədən din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması məqsədilə müvafiq dövlət qurumları ilə birgə hazırlanan Tədbirlər Planının həyata keçirilməsi, dini maarifləndirmə sahəsində tədbirlərin təşkil edilməsi istiqamətində fəaliyyətini davam etdirdiyini, aidiyyəti qurumlarla birlikdə çoxsaylı tədbirlərin həyata keçirildiyini deyib. Komitənin 2023-cü il üçün Tədbirlər Planında “Heydər Əliyev İli” ilə bağlı tədbirlərə geniş yer ayrıldığını, “Heydər Əliyev irsi: tolerantlıq və multikultural dəyərlər”, “Heydər Əliyev 100: azərbaycançılıq ideologiyası və milli-mənəvi dəyərlərimiz” və “Heydər Əliyev siyasəti: tolerantlıq” mövzularında konfransların, habelə dini icmalar arasında “Heydər Əliyev siyasəti: tolerantlıq” mövzusunda ənənəvi yazı müsabiqəsinin təşkil olunduğunu nəzərə çatdırıb. Eyni zamanda “Müasir çağırışlar və qarşıda duran əsas hədəflər” mövzusunda 14 regional konfransın, Komitənin Elm və Təhsil Nazirliyi ilə birgə layihəsi çərçivəsində “Gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi” mövzusunda isə 6 regional seminar-treninqin keçirilməsinin əhəmiyyətindən danışıb.

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru Aqil Şirinov öz növbəsində rəhbərlik etdiyi təhsil ocağının 2023-cü ildəki fəaliyyəti barədə hesabatla çıxış edib. Bildirib ki, ötən ilin ən yaddaqalan hadisəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarına əsasən, Azərbaycan İlahiyyat İnstitutu yanında “Bakı İlahiyyat Kolleci” publik hüquqi şəxsin yaradılması oldu. Rektor onu da diqqətə çatdırıb ki, 2023-2024-cü il tədris ilində Dövlət İmtahan Mərkəzinin təşkil edəcəyi imtahan vasitəsilə Bakı İlahiyyat Kollecinə “Dini-mənəvi xidmət” ixtisası üzrə tələbə qəbulunun həyata keçrilməsi nəzərdə tutulub.

Ötən il bakalavriat pilləsi üzrə 49, magistrtura pilləsi üzrə 3 nəfər olmaqla, 52 tələbənin məzun olduğunu deyən A.Şirinov bildirib ki, 2023-2024-cü tədris ili üzrə İnstitutun doktoranturasına (Dinşünaslıq, Dinin tarixi və fəlsəfəsi) 2, bakalavriat pilləsinə 81 (51 - İslamşünaslıq, 30 - Dinşünaslıq), magistraturasına isə 8 nəfər qəbul edilib. Mübadilə proqramı çərçivəsində İnstitutun “İslamşünaslıq” ixtisasında oxuyan 2 tələbəsi təhsillərini 1 semestr Qazaxıstanın “Nur-Mübarək” Misir İslam Mədəniyyəti Universitetində davam etdiriblər.

Daha sonra Mənəvi Dəyərlərin Təbliği Fondunun 2023-cü ildə fəaliyyəti və cari ildə görüləcək işlər barədə məlumatla Fondun icraçı direktoru Mehman İsmayılov çıxış edib. Bildirib ki, ötən ildə dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsindəki fəaliyyətinin dəstəklənməsi məqsədilə Fond tərəfindən din xadimlərinə maddi dəstək verilib. Eyni zamanda Fond tərəfindən ötən tədris ilində AİI-nin biri Heydər Əliyev təqaüdü olmaqla, 61 tələbəsinə aylıq təqaüdlər verilib.

Hesabat dövründə Fond şəhidlərimizin ailələri və qazilərlə iş istiqamətində fəaliyyətini davam etdirib. Şəhidlərin əziz xatirəsinə həsr olunan müxtəlif səpkili layihələr icra olunub, sənədli filmlər, videoçarxlar hazırlanıb, kitablar çap edilib, o cümlədən şəhid ailələrinin üzvlərinin Şuşaya səfərləri təşkil olunub.

Dövlət Komitəsinin 2024-cü ildə həyata keçirəcəyi tədbirlər barədə DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri Sadiq Mirzəyev çıxış edərək qurumun milli-mənəvi dəyərlərimizin qorunması, dini fanatizm, radikalizm və ekstremizmə qarşı ideoloji müstəvidə mübarizə, xalqımızın tolerantlıq ənənələrinin və dövlətimizin multikulturalizm siyasətinin təbliği, xurafat və mövhumata qarşı mübarizə, dinlərarası və məzhəblərarası yaxınlaşmanın, dialoq və əməkdaşlığın təşviqi və s. istiqamətlərdə planlaşdırdığı layihələrin önəminə toxunub.

Yekunda Dini təhsil şöbəsinin müdiri Elnarə Kərimova Kollegiyanın qərar layihəsini səsləndirib və layihə müzakirələrdən sonra qəbul edilib.

# "DİNİN SİYASİLƏŞDİRİLMƏSİ: ZƏRƏRLİ TƏSİRLƏR" MÖVZUSUNDA KONFRANS TƏŞKİL OLUNUB



Yanvarın 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Azərbaycan İlahiyyat İnstitutunda "Dinin siyasiləşdirilməsi: zərərli təsirlər" mövzusunda konfrans keçirilib.

Respublikamızda fəaliyyət göstərən müxtəlif konfessiyalara mənsub dini icma sədrləri və din xadimlərinin iştirakı ilə baş tutan tədbiri giriş sözü ilə açan DQİDK sədrinin müavini Səyavuş Heydərov əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan və Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət-din münasibətlərinə diqqət çəkib. Bildirib ki, Azərbaycanın din siyasətində dini etiqad azadlığının təminatı prioritet məsələlərdəndir. Dövlət tərəfindən dini icmalara, müxtəlif dinlərə məxsus ibadətgahlara göstərilən diqqət və qayğı göz önündədir. Dövlət tərəfindən icmalara hər cür dəstək göstərilir, onların hər bir müraciəti diqqətdə saxlanılır. Hər il cənab Prezident İlham Əliyev tərəfindən rəsmi qaydada ölkədəki dini konfessiyalara maliyyə yardımı ayrılır ki, bu yardımın əhatə dairəsi bütün dini icmalara, o cümlədən qeyri-müsəlman icmalarına şamil edilir. Heydər Əliyev Fondu tərəfindən tarixi-mədəni abidələr bərpa olunur, yeni ibadət ocaqları inşa edilir. Cəmiyyətimizdə milli və dini həmrəylik ölkəmizin tarixində ən yüksək həddədir. Bu birlik 44 günlük Vətən müharibəsi dövründə özünü bir daha sübut etdi. Sədr müavini vurğulayıb ki, bu faktların fonunda ABŞ Dövlət Departamenti tərəfindən Azərbaycanda dini etiqad azadlığının pozulması barədə fərziyyələrə istinadla ölkəmizi heç bir beynəlxalq statusa malik olmayan qrupa (xüsusi izləmə siyahısı) daxil etməsi təəssüf doğurur. ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyası tərəfindən təqdim edilən "nöqsanlar" ölkəmizdəki gerçəkliyi əks etdirmir, reallıqla daban-dabana ziddiyyət təşkil edir. BDAK-nın məlum hesabatlarında bir çox məqamların araşdırılmadığı, qeyri-müstəqil və ənənəvi olaraq ermənipərəst mərkəzli məlumatlar yayan mənbələrdən istifadə edilməsi, bəzən isə hadisələrə məqsədli şəkildə yanlış izahatlar verilməsi diqqəti cəlb edir.

S.Heydərov həmçinin bu gün insan hüquqları, dini azadlıqlar meyarlarının bəzi böyük güclər tərəfindən təzyiq vasitəsinə çevrildiyini qeyd edib. O, Azərbaycanda fəaliyyət göstərən dini icmalara çağırış edərək ölkəmizin əleyhinə qarayaxma kampaniyası aparan qüvvələrə qarşı həmrəy və ayıq-sayıq olmanın vacibliyini vurğulayıb.

Milli Məclisin deputatı Hikmət Məmmədov bildirib ki, hər bir cəmiyyətdə, hüquqi dövlətdə ictimai, dini münasibətlərin əsaslarını hüquq tənzimləyir. Ölkəmizdə bu öz əksini Azərbaycan Respublikasının Konstitusiyasında, "Dini etiqad azadlığı haqqında" Qanunda və s. aktlarda tapıb. Səmavi dinlərin hər birinin burada yayılaraq insanların milli düşüncəsinə, davranışlarına və həyat tərzinə təsir etdiyini deyən millət vəkili qeyd edib ki, bu baxımdan Azərbaycan dünyada yeganə coğrafi, siyasi məkandır. Deputat əlavə edib ki, dini dözümlülük, insanların inanclarına hörmət ölkəmizin vətəndaşlarının həyat tərzinə çevrilib.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədr müavini Fuad Nurullayev qeyd edib ki, illərlə Ermənistanın şər və böhtanlarının qarşısını layiqincə alan xalqımız ölkəmizə qarşı çirkin addımlar atan qüvvələrlə bundan sonra da mübarizə aparacaq. ABŞ Dövlət Departamentinin Azərbaycanda fəaliyyət göstərən dini icmalarla bağlı qərəzli mövqeyini qınayan F.Nurullayev deyib ki, ölkəmizdə dini etiqad azadlığı yüksək səviyyədə qorunur və dini baxışlarına görə heç kimə təzyiq göstərilmir, şiə-sünni problemi yoxdur. Bizim güclü dövlətimiz var və onu heç kim sarsıda bilməz. ABŞ-nin qərəzli münasibəti gözügötürməzlikdən başqa bir şey deyil.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov isə bildirib ki, multikulturalizmi və tolerantlığı özünün ideoloji əsaslarından hesab edən Azərbaycanın həmin siyahıya daxil edilməsi, ən azı, ədalətsizlikdir. Hesabatda guya ölkəmiz tərəfindən Qarabağda xristian dini irsinin məhv olunması iddiası gülüncdür. Azərbaycan hökumətinin Qarabağda təkcə dağıdılan müsəlman ibadətgahlarına deyil, xristian dini abidələrinə qarşı qayğı və diqqəti haqqında onlarla nümunə sadalamaq mümkündür. Azərbaycanda müsəlmanlarla yanaşı, qeyri-müsəlman dini icma nümayəndələrinin heç bir diskriminasiya halları ilə qarşılaşmadıqlarını vurğulayan A.Şirinov deyib ki, ABŞ-nin elə özündə diskriminasiya ildən-ilə artmaqda davam edir. Kaliforniya Dövlət Universitetinin Nifrət və Ekstremizm Tədqiqatları Mərkəzi tərəfindən ötən il hazırlanan tədqiqatda ABŞ-də dini nifrət motivli cinayətlərin 27 faiz artdığı qeyd olunur. Rektor, həmçinin çıxışında Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını, təhsil ocağında müxtəlif dinlər və məzhəblərin fərq qoyulmadan tədris olunmasını da dövlətimizin müxtəlif inanclara tolerant münasibətinin göstəricisi kimi dəyərləndirib.



Bakı Şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Elnur Əfəndiyev, Azərbaycan Katolik Kilsəsinin nümayəndəsi Yozef Marek, Avropa Yəhudilərinin Bakı Dini icmasının ravvini Şneor Seqal, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Gürcü Yəhudiləri dini icmasının sədri Zamir İsayev, Azərbaycan Bəhailəri Mərkəzinin katibi Ramazan Əsgərli və "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icmasının sədri Rasim Xəlilov çıxış edərək ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyasının Azərbaycanla bağlı dərc etdiyi xüsusi hesabatı və Dövlət Departamenti tərəfindən ölkəmizin qondarma xüsusi izləmə siyahısına daxil olan ölkə kimi müəyyənləşdirilməsini yekdilliklə pisləyiblər. Bildiriblər ki, adıçəkilən sənədlərdə Azərbaycandakı dini etiqad azadlığı ilə əlaqədar yer almış yalan-yanlış mülahizələri ölkəmizdə mövcud olan dini tolerantlıq mühitinə qarşı qərəzli kampaniya kimi qiymətləndiririk. Müxtəlif konfessiyaların nümayəndələri olaraq heç bir zaman Azərbaycanda dini zəmində qarşıdurma, qısnama, ayrı-seçkilik yaşamadıqlarını diqqətə çatdıran çıxışçılar ABŞ Dövlət Departamentini bundan sonra Azərbaycan gerçəkliklərini nəzərə alaraq obyektiv reaksiya və qərarlar verməyə səsləyiblər.

# GÜNDÜZ İSMAYILOV: BEYNƏLXALQ HÜQUQ ANTİSEMİTİZMİN, İSLAMOFOBİYANIN QARŞISINI ALMAQDA ACİZDİR



Biz bəşəriyyət olaraq Holokostdan dərs almamışıq. Bu, mənəviyyatın və dinşünasların problemidir. Əgər bəşəriyyət Holokostdan nəticə çıxarsaydı, Yuqoslaviyada Srebrenitsa qətliamı, Azərbaycanda Xocalı soyqırımı baş verməzdi. Beynəlxalq hüquq antisemitizmin, islamofobiyanın qarşısını almaqda acizdir.

Bu fikirləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov "Holokost soyqırımı müasirlərin gözü ilə" mövzusunda yanvarın 29-da keçirilən tədbirdə səsləndirib.

G.İsmayılov etnik təmizləmələri, soyqırımı kimi hadisələrin baş verməsini ədalətsizliyin, ikili standartların nəticəsi kimi qiymətləndirib.

"Azərbaycan xalqı da ikili standartlardan əziyyət çəkir. XXI əsrdə yaşamağımıza baxmayaraq, Xocalı faciəsinin törədilməsi ancaq təəssüf hissi doğurur.

Qətliamlara, etnik təmizləmələrə o vaxt son qoyulacaq ki, ədalət bərpa olunacaq, haqq-ədalət insanlara münasibətdə başlıca amil olacaq", - deyə dövlət komitəsinin rəsmisi vurğulayıb.

# TÜRKİYƏLİ QADIN DİPLOMAT ATƏT-İN İSLAMOFOBİYA İLƏ MÜBARİZƏ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ TƏYİN EDİLİB



Türkiyəli qadın diplomat Evren Dağdelen Akgün Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) islamofobiya və dözümsüzlük ilə mübarizə üzrə xüsusi nümayəndəsi təyin edilib.

Anadolu agentliyi xəbər verir ki, türkiyəli diplomat bu vəzifəyə cari ildə ATƏT-ə sədrlik edən Malta tərəfindən təyin olunub.

Türkiyə XİN-in bununla bağlı bəyanatında deyilir ki, "Evren Dağdelen Akgünün təşkilatın müsəlmanlara qarşı dözümsüzlük və ayrı-seçkiliyə qarşı mübarizə üzrə xüsusi nümayəndəsi təyin edilməsi təqdirəlayiq addımdır". Nazirlik qeyd edib ki, Türkiyənin nümayəndəsi bu məsuliyyətli vəzifədə mədəniyyətlər və dinlər arasında dialoqa töhfə verəcək.

Türk diplomatiyasına 30 il xidmət etmiş Evren Dağdelen Akgün uzun müddət Ankaranın Avropa İttifaqındakı səfiri qismində Brüsseldə çalışıb. O, həmçinin Vaşinqton, Özbəkistan və Tailandda da səfirliklərdə fəaliyyət göstərib.

# AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASI MİLAD BAYRAMINI QEYD EDİB







Yanvarın 7-də pravoslavlar ən vacib xristian bayramlarından birini – Milad bayramını qeyd ediblər. Xristian aləminin ən əlamətdar və təntənəli bayramlarından sayılan Milad ənənəyə görə, İsa Məsihin Vifleyem şəhərində dünyaya gəlməsinin şərəfinə qeyd olunur.

Milad bayramı bir gün əvvəl, yanvarın 6-dan başlayır. Pravoslavlara görə, bu, 40 günlük orucun son günü və Miladın qeyd edilməsi üçün daha möhkəm hazırlıq vaxtıdır.

Axşam, gün batandan sonra bütün ailə həvarilərin sayına uyğun olaraq 12 yağsız yeməyin olduğu masa arxasında yığışır. Yeməklərin heç biri toxunulmamış qalmamalıdır: hər birindən ən azından bir az dadmaq lazımdır. Masada bir şamın - canlı alovun yanması məsləhətdir. Müqəddəs axşam yeməyinin əsas xörəyi kutyadır. O, ənənəvi olaraq buğdadan hazırlanır, lakin digər dənli bitkilərdən də istifadə edilə bilər. Taxıl bəşəriyyətin tərkib hissəsi olan insanların simvoludur. Kutyada yapışqan qismində bal və ya şəkər siropu istifadə olunur. Milad orucu bu şam yeməyi ilə bitir: yanvarın 7-də bütün məhdudiyyətlər aradan qaldırılır və artıq əsl bayram ziyafəti təşkil etmək olar.

Azərbaycanın pravoslav xristian icması da hər il ənənəvi olaraq Milad bayramını qeyd edir. Azərbaycanda Xristianlığın çox qədim tarixi var. Təsadüfi deyil ki, Qafqazdakı ilk xristian məbədləri məhz burada yaranıb. Bu torpaqda dünya dinləri əsrlər boyu insanlar arasında dostluq və qardaşlıq münasibətlərinin qurulmasında əvəzsiz rol oynamışdır. Azərbaycanda heç vaxt milli və dini dözümsüzlük halları baş verməyib. Digər konfessiyaların nümayəndələri kimi, Azərbaycan xristianları da cəmiyyətin tamhüquqlu üzvləridir, ölkə həyatında fəal iştirak edirlər. Azərbaycanda bir neçə pravoslav məbədi var.

Prezident İlham Əliyev hər il Azərbaycanın pravoslav xristianlarını Milad bayramı münasibətilə təbrik edir.

Yanvarın 6-dan 7-nə keçən gecə Müqəddəs Miradaşıyan Qadınlar Kafedral Kilsəsində təntənəli ibadət mərasimi keçirilib. Milad bayramı mərasimi başlamazdan əvvəl Bakı yeparxiyasının katibi Arximandrit Aleksi (Nikonorov) jurnalistlərə müsahibəsində deyib: "Milad bayramı ölkəmiz üçün xüsusi bayramdır. Azərbaycan Prezidenti ənənəvi olaraq hər il pravoslav xristianları təbrik edir. O, təbrik məktubunda dinlərarası dialoqun yüksək səviyyəsini, həmçinin bayram ab-havasını xüsusi vurğulayır".

"Azərbaycanın müasir tarixində əlamətdar olan 2023-cü ildə bütün torpaqlarımız işğaldan azad edilib", – deyə arximandrit Aleksi əlavə edib.

Rus Pravoslav Kilsəsinin nümayəndəsi vurğulayıb ki, dünyada bayramlarımızı pozmağa çalışan qüvvələr var, Azərbaycanı güclü, iqtisadi və mədəni mənada inkişaf etmiş ölkə kimi görmək onlar üçün xoş deyil. Onun sözlərinə görə, Azərbaycanın güclü və nüfuzlu dövlətə çevrilməsi heç də bir çoxunun ürəyincə deyil: "Azərbaycana müxtəlif hücumlar təşkil edilir, ölkəmiz dinlərarası münasibətlərdə, dövlətlə din arasındakı münasibətlərdə problemin olmasında ittiham olunur. Lakin keçmişdə, həmçinin bir il əvvəl Azərbaycanın dini liderləri ABŞ, Avropa və digər regionların ən mötəbər beynəlxalq platformalarına dəvət olunurdu, orada ölkəmiz haqqında ən tərifli çıxışlar edilirdi, bizdən unikal təcrübəmizi bölüşmək xahiş olunurdu. Amma təəssüflər olsun ki, indi həmin adamlar xüsusi tolerantlıq, sülhsevərlik və dözümlülük ruhu ilə seçilən Azərbaycanı ləkələməyə çalışırlar".

Arximandrit Aleksi vurğulayıb ki, bu çətinliklərə baxmayaraq, Azərbaycan yoluna inamla davam edəcək.

***

Milad bayramı ilə əlaqədar bölgələrdə yerləşən bütün pravoslav kilsələrində də təntənəli ibadət mərasimləri keçirilib.

Gəncədə Aleksandr Nevski adına Rus Pravoslav Kilsəsində keçirilən tədbirdə əvvəlcə Prezident İlham Əliyevin Milad bayramı ilə bağlı təbriki oxunub. Daha sonra Aleksandr Nevski kilsəsinin dini heyəti Həzrət İsanın mövludu ilə bağlı ayinlər icra edib. Pravoslavlar kilsədə şamlar yandıraraq, sülh, əmin-amanlıq və xoşbəxtlik diləkləri ilə dualar oxuyub, xaç suyu içiblər. Vətən müharibəsində şəhid olanların da ruhuna dualar oxunub.

Qeyd edək ki, Gəncə şəhərində təxminən 200 ailədən artıq pravoslav yaşayır.

***

Xaçmazda yerləşən "Müqəddəs möcüzəvi Nikolay" pravoslav kilsəsində qeyd olunan Milad tədbirinə ölkəmizin şimal rayonlarında yaşayan xristian icmasının üzvləri gələrək dini ayinlər icra edib, dualar oxuyublar. Mərasimdə Prezident İlham Əliyevin Azərbaycanın pravoslav xristian icmasına ünvanladığı bayram təbriki oxunub. Vurğulanıb ki, Azərbaycanda xüsusi coşqu ilə qeyd olunan Milad bayramı özündə yeniliyi, əmin-amanlığı, mərhəmət və şəfqət duyğularının təntənəsini təcəssüm etdirir. "Müqəddəs möcüzəvi Nikolay" pravoslav kilsəsinin baş keşişi, ieromonax Qeorqiy Budaqov bildirib ki, İsa peyğəmbərin mübarək mövludu ilə əlamətdar olan Milad bayramı hər il yüksək səviyyədə qeyd olunur. Qeyd edək ki, Xaçmaz şəhərindəki "Müqəddəs möcüzəvi Nikolay" pravoslav kilsəsi 1946-cı ildən fəaliyyət göstərir.

***

Daha bir tədbir isə Qəbələ rayonunun Nic qəsəbəsində baş tutub. Alban-Udi xristian dini icmasının sədr müavini və kilsənin keşişi Rafiq Danakari Milad bayramının mahiyyətindən, dini ayinlərin icrası üçün Azərbaycanda yaradılan şəraitdən, dövlətin onlara olan diqqət və qayğısından danışıb. Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyevin bayram təbriki səsləndirilib. Çıxışlardan sonra kilsədə şamlar yandırılıb, dualar oxunub, bayram süfrəsi açılıb. Alban-Udi xristian dini icmasının sədri Robert Mobili deyib ki, sovetlər dövründə udilərə öz milli bayramlarını qeyd etmək qadağan olunsa da, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra onlar bayramlarını və adət-ənənələrini geniş qeyd edirlər. Qəsəbə sakinləri Nicdəki "Cotari" alban kilsəsinin əsaslı şəkildə bərpasının tolerantlığa bariz nümunə olduğunu qeyd edərək deyiblər ki, müsəlman və xristianların mehriban şəkildə birgə yaşadığı Nic qəsəbəsi tolerantlığın kiçik modeli sayılır. Xatırladaq ki, altı min nəfər əhalisi olan Nic qəsəbəsində 3500-dən çox udi yaşayır. Nicdəki məktəblərin ibtidai siniflərində udi dili tədris olunur, kilsədə dini ayinlər onların ana dilində icra edilir. Qəsəbədə üç kilsə və iki məscid var.

***

İsmayıllı rayonunun İvanovka kəndində "Molokan-ruhani-xristian" dini icmasına məxsus ibadət evində qeyd edilən Milad bayramında əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bayram təbriki oxunub. Daha sonra dini heyət Həzrəti İsanın mövludu ilə bağlı ayinlər icra edib. Vətən müharibəsində şəhid olanların ruhuna dualar oxunub.

***

Sumqayıt şəhərində yerləşən "Müqəddəs Sarovlu Serafim" pravoslav kilsəsində də Milad bayramı qeyd olunub. Bayram tədbirində kilsənin keşişinin iştirakı ilə dini ayinlər icra olunub. Eyni zamanda ölkəmizin ərazi bütövlüyü, suverenliyi uğrunda şəhid olanların ruhuna dualar oxunub.

# MÜDAFİƏ NAZİRLİYİ VƏ DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN BİRGƏ TƏDBİRLƏR PLANI İMZALANIB

Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında 2024-cü il üçün birgə Tədbirlər Planı imzalanıb.

Birgə Tədbirlər Planına əsasən, Azərbaycan Ordusunda dini radikalizmə qarşı mübarizəyə dair keçiriləcək tədbirlərin yeri, icra vaxtı və icraya məsul şəxslər müəyyən olunub.

Tədbirlərin Müdafiə Nazirliyinin tabeliyindəki qoşun (qüvvə) növü, birlik, birləşmə, hərbi hissələr və xüsusi təyinatlı təhsil müəssisələrində təşkil olunması nəzərdə tutulub.

Cari il ərzində Azərbaycan Ordusunun hərbi qulluqçuları ilə azərbaycançılıq ideyası, milli-mənəvi, mədəni dəyərlərin qorunub saxlanılması, inkişafı, radikal dini cərəyanlar və ekstremizmlə mübarizə, mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında əməkdaşlıq, o cümlədən digər mövzularda tədbirlər keçiriləcək, maarifləndirici söhbətlər aparılacaq.

# ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyasının 2023-cü ildə Azərbaycanla bağlı dərc etdiyi xüsusi hesabatı və ABŞ Dövlət Departamenti tərəfindən ölkəmizin qondarma xüsusi izləmə siyahısına daxil olan ölkə kimi müəyyən edilməsi barədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Bəyanatı




ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyasının (BDAK) hesabatını, eləcə də, ABŞ Dövlət Departamentinin bəyanatını qəti surətdə pisləyirik. Əminliklə bildiririk ki, ABŞ Dövlət Departamenti tərəfindən Azərbaycanda dini etiqad azadlığının pozulması barədə fərziyyələrə istinadla ölkəmizi heç bir beynəlxalq statusa malik olmayan qrupa (xüsusi izləmə siyahısı) daxil etməsi siyasi manipulyasiya vasitəsindən başqa bir şey deyildir.

2013-cü ildən bəri BDAK hər il öz hesabatlarında ölkəmizdə dini azadlıqların pozulması iddiası ilə Dövlət Katibi tərəfindən Azərbaycanın "xüsusi izləmə siyahısı"na daxil olan ölkə kimi təyin edilməsini Dövlət Departamentinə tövsiyə etmiş, Azərbaycana qarşı qərəzli, yanlış məlumatlar yaymışdır. Dövlət Komitəsi olaraq dəfələrlə bu Komissiyanın yaydığı hesabatlarla bağlı müvafiq açıqlamalar verilib, onların göstərdikləri heç bir fakta söykənməyən şayiə xarakterli, uydurma məsələlərlə bağlı mövqeyimiz müxtəlif səviyyələrdə diqqətə çatdırılmışdır. Habelə rəsmi məktublarla hesabatda qaldırılan məsələlərin doğru olmadığı və qərəzliliyi maddə-maddə onların diqqətinə çatdırılaraq etiraz ifadə edilmişdir. Eyni zamanda Azərbaycanda olan müsəlman və qeyri-müsəlman icmalarının aparıcı qurumları həm sonuncu, həm də əvvəlki hesabatlarla bağlı xüsusi etiraz bəyanatları yaymış, Komissiyaya göndərmiş, o cümlədən müxtəlif din xadimləri fərdi olaraq da mətbuatda açıqlamalar vermişlər.

ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyası tərəfindən təqdim edilən "nöqsanlar" ölkəmizdəki gerçəkliyi əks etdirmir, reallıqla daban-dabana ziddiyyət təşkil edir. BDAK-nın məlum hesabatlarında bir çox məqamların araşdırılmadığı, qeyri-müstəqil və ənənəvi olaraq ermənipərəst mərkəzli məlumatlar yayan mənbələrdən istifadə edilməsi, bəzən isə hadisələrə məqsədli şəkildə yanlış izahatlar verilməsi diqqəti cəlb edir. Bu, hesabatların obyektivliyinə ciddi xələl gətirir, ümumiyyətlə, onların hazırlanmasında ifadə edilən məqsəd və məramlara qətiyyən uyğun gəlmir.

Bu gün Azərbaycan dövlətinin, o cümlədən Dövlət Komitəsinin qarşısında duran əsas vəzifə hüququn aliliyi prinsipi əsasında insanların dini etiqad azadlığının təmin edilməsidir. Bu azadlığın təmin edilməsində dini sahədə insanların hüquq və azadlığı, həmçinin ictimai və dövlət təhlükəsizliyinə yönəlmiş təhdidlərin qarşısının alınması mühüm məsələdir.

Hesabatda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində sözdə erməni abidələrinin vəziyyəti ilə bağlı narahatlıq, müsəlman abidələrinə qarşı törədilmiş vandalizmə münasibətdə isə dözümlü yanaşma sezilir. Eyni zamanda Komissiya üzvlərini ərazilərimizə istinad edərkən hüquqi cəhətdən mövcud olmayan, siyasi baxımdan qərəzli və manipulyasiya xarakterli adların istifadəsinə yol verməməyə dəvət edirik. Belə ki, Azərbaycanda "Dağlıq Qarabağ" adında inzibati ərazi vahidi yoxdur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonaları vardır.

Sözügedən təşkilatın vaxtilə Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğu dövrdə ərazilərimizdəki tarixi-mədəni və dini abidələrlə bağlı hansısa məlumatına rast gəlməmişdik. Baxmayaraq ki, Azərbaycan dövləti həmişə həmin ərazilərdəki xalqımıza məxsus tarixi-mədəni və dini abidələrin erməni silahlı birləşmələri tərəfindən vandalizm aktlarına məruz qalması ilə bağlı dünya ictimaiyyətinə çağırışlar etmişdir. Hətta məscidlərimizin heyvan saxlama yerlərinə çevrilməsi, onların yararsız vəziyyətə salınması, təmir adı altında özgəninkiləşdirilməsi, qədim Azərbaycan dövləti olmuş Qafqaz Albaniyası irsinə aid abidələrin erməniləşdirilməsi, müsəlman qəbiristanlıqlarında insan qalıqlarına qarşı təhqiramiz hərəkətlərə yol verilməsi və bu kimi hallar barədə sübutlar təqdim etmişdir.

Bildiyiniz kimi, 2020-ci ildə 44 günlük Vətən müharibəsindən sonra vəziyyət tamamilə dəyişdi. İşğalın bitməsilə buradakı abidələrin, o cümlədən dini məbədlərin vəziyyəti, onların necə xarabalığa çevrilməsi gerçəkliyi öz təsdiqini tapdı. Təkcə onu demək kifayətdir ki, 67 məsciddən yalnız 2-si saxlanılmışdır. Onlardan da Ağdam Cümə məscidi hərbi oriyentir məqsədilə yararsız vəziyyətdə saxlanılıb. Özlərini dünyaya "tolerant" göstərmək məqsədilə Şuşadakı Yuxarı Gövhər Ağa məscidi qismən yararlı vəziyyətdə saxlanılsa da, saxtalaşdırılaraq dünyaya İran məscidi kimi təqdim edilib. Qalanları isə Ermənistan silahlı birləşmələri tərəfindən tamamilə dağıdılmışdır. Amma hələ dünya ictimaiyyətinin bunu obyektiv araşdırması niyyətini müşahidə etməmişik. Buna baxmayaraq, Azərbaycan Bakının mərkəzindəki erməni-qriqoryan kilsəsini, hətta oradakı minlərlə erməni dilində olan kitabları qoruyub saxlamışdır.

Komissiyanın hesabatında Birləşmiş Millətlər Təşkilatının 2023-cü ilin oktyabrında başa çatan Qarabağdakı missiyası tərəfindən "mədəni və ya dini strukturların heç bir ziyan görmədiyi" məlumatı bildirilsə də, hansısa naməlum insan hüquqları təşkilatlarının iddiaları əsas gətirilməklə ali beynəlxalq təşkilatın hesabatına belə skeptik yanaşılması təəccüb doğurur. O cümlədən, Dövlət Departamentinin bəyanatında da bu məsələyə toxunulmamışdır.

Eyni zamanda Azərbaycan əleyhinə kampaniyalarda erməni lobbisi aktiv şəkildə iştirak edir. Komissiyanın heyətinə qərəzli erməni əməkdaşın cəlb edilməsi onun mahiyyətini bir daha sübut edir.

Reallıqda Azərbaycanda dini vəziyyət...

Azərbaycan müstəqilliyini bərpa etdiyi dövrdən etibarən bəzi xarici dairələr ölkəmizdə radikal və ekstremist dini ideyaların daşıyıcıları olan qrupların yaradılmasında maraqlı olublar. Azərbaycanda dini sahədə, insanların dini etiqad azadlığının təmin edilməsində hər il mütərəqqi yeniliklər baş verir. Qanunvericilik bazası mütəmadi təkmilləşdirilir, islahat aparılır və dini icmaların fəaliyyətinə dəstək verilir. Bildiyiniz kimi hər il cənab Prezident İlham Əliyev tərəfindən rəsmi qaydada ölkədəki dini konfessiyalara maliyyə yardımı ayrılır ki, bu yardımın əhatə dairəsi bütün dini icmalara, o cümlədən qeyri-müsəlman icmalarına şamil edilir. Heydər Əliyev Fondu tərəfindən tarixi-mədəni abidələr bərpa olunur, yeni ibadət ocaqları inşa edilir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bölgələrə səfər edərkən mütləq həmin ərazidə yerləşən dini ibadət yerlərini ziyarət edir, dindarlarla söhbətlər edir, onları dinləyirlər.

Eyni zamanda, dövlət başçısı tərəfindən işğaldan azad olunmuş ərazilərdəki dini abidələr xüsusi nəzarətə götürülmüşdür. İstisnasız olaraq, həmin ərazilərdə yerləşən dini ibadət ocaqlarının bərpası üçün göstəriş verilmişdir. Artıq Şuşada dağıdılmış bəzi məscidlər, kilsələr bərpa edilmişdir. Şuşada Yuxarı Gövhərağa məscidinə din xadimi təyin edilmişdir.

Həmçinin bildirməliyik ki, neçə illərdir din xadimlərinə dövlət tərəfindən maddi yardımlar olunur. Onların sosial layihələri maliyyələşdirilir. Onlarla birgə tolerantlığı, birgəyaşayışı əks etdirən konfranslar və s. tədbirlər təşkil edilir. Ötən il də Bakı şəhəri "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icması və digər qeyri-islam dini icmaları tərəfindən Azərbaycanda fəaliyyətdə olan dini konfessiyaların nümayəndələrinin iştirakı ilə Quba, İsmayıllı, Kəlbəcər və s. rayonlara səfərlər təşkil olunub. Belə səfərlər icmalar arasında dostluq və mehribanlıq münasibətlərini möhkəmləndirir.

Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələrinin inkişaf etdirilməsində, dünyaya yayılmasında da mühüm işlər görülür. Xatırladırıq ki, bu məqsədlə Dövlət Komitəsi tərəfindən təkcə 2022-ci ildə ABŞ-də - Vaşinqtonda "Qlobal sülh və təhlükəsizlik naminə dinlərarası harmoniya" və Belçikada - Brüssel şəhərində "Daha təhlükəsiz dünya naminə dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi" adlı konfranslar təşkil olunub. Beynəlxalq institutlarla, o cümlədən ABŞ-nin adıçəkilən təşkilatı ilə əməkdaşlıq imkanlarının genişləndirilməsi istiqamətində tədbirlər həyata keçirilir, onların rəhbərləri və mütəxəssisləri ilə müxtəlif səviyyələrdə görüşlər keçirilir və fikir mübadiləsi aparılır.

Beləliklə, Dövlət Departamenti hər il sözügedən hesabatlar əsasında ayrı-ayrı ölkələrdəki dini durumla bağlı açıqlamalar verir. Qeyd edək ki, Komissiyanın 10 il ərzində tövsiyələrinə baxmayaraq, 04.01.2024-cü il tarixinədək Departament tərəfindən ölkəmiz "xüsusi izləmə siyahısı"na daxil olan ölkə kimi müəyyən edilməmişdir (Azərbaycan ilə yanaşı Əlcəzair, Mərkəzi Afrika Respublikası, Komor adaları və Vyetnam da sözügedən "siyahı"da olan ölkə kimi təyin edilmişdir).

Hesab edirik ki, bütün bunlar Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasına yönəlik uğurlu addımlarını həzm edə bilməyənlərin ölkəmizə qarşı atdığı qərəzli addımlarından biridir. Dini baxımdan "nəzarətə götürülməli" olan ölkələrdən biri Ermənistan və ABŞ-dir. Lakin erməniləri himayə edənlər onu görmək əvəzinə Azərbaycana hücum edirlər. Monoetnik Ermənistanda ayrı-ayrı din nümayəndələrinin təqib edilməsi faktlarını heç kim gizlədə bilməz. 30 il ərzində 20 faiz ərazimizi işğal altında saxladığı zaman həm müsəlman, həm də digər dinlərə, o cümlədən Qafqaz Albaniyasına aid dini abidələrə qarşı vandalizm aktı törədənin Ermənistan olduğunu hamı bildiyi halda, Azərbaycanı izləmə siyahısına daxil etmək qərəzli yanaşmadır.

Elə ABŞ-nin özündə də müsəlmanlara və digər dini icmalara, habelə qaradərililərə qarşı nə qədər hadisələrin olduğu hamıya bəllidir. ABŞ-li hüquq müdafiəçilərinin məlumatlarına görə, 2021-ci ildə ABŞ-də dini dözümsüzlük zəminində yəhudi və müsəlmanlara qarşı törədilmiş 1005 cinayət faktı qeydə alınıb. Eləcə də, 2022-ci ildə 6720 müsəlman dini ayrı-seçkiliyə məruz qalıb. Anti-İslam əhval-ruhiyyəsinin həyəcanverici həddə çatması barədə məlumatlar Amerika reallıqlarının kiçik bir hissəsini əks etdirir.

Beləliklə, Komissiya və Dövlət Departamentinin müsəlman abidələrinə qarşı edilmiş vandalizmi görməzdən gələrək Azərbaycanın müstəqil siyasətinə təsir göstərmək cəhdi yolverilməzdir. Sözsüz ki, bu, ABŞ-Azərbaycan münasibətlərinə də xələl gətirir.

Fürsətdən istifadə edərək Dövlət Departamentinə regionda yaranmış yeni reallıqlardan çıxış edərək Azərbaycana qarşı qarayaxma aparan ermənipərəst qüvvələrin dəyirmanına su tökməməyi, ikili standartlardan uzaq olmağı və beynəlxalq hüquq normalarına uyğun addımlar atmağı tövsiyə edirik.

# AZƏRBAYCANDA FƏALİYYƏT GÖSTƏRƏN DİNİ KONFESSİYALARIN RƏHBƏRLƏRİ ABŞ DÖVLƏT DEPARTAMENTİNƏ MÜRACİƏT ÜNVANLAYIBLAR

ADKMŞ- CCRCA

AZƏRBAYCAN DİNİ KONFESSİYALARININ MƏŞVƏRƏT ŞURASI

Müraciətdə deyilir: "Biz – Azərbaycanda fəaliyyət göstərən dini konfessiya rəhbərləri Məşvərət Şurasının üzvləri ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyasının (USCIRF) hesabatına istinadən Dövlət Departamentinin ölkəmizi 2023-cü ildə dini etiqad azadlığı üzrə "xüsusi izləmə siyahısı"na salmaq barədə qərarını qətiyyətlə pisləyir, bunu birmənalı şəkildə subyektiv və qərəzli yanaşma hesab edirik. Etiraz bəyanatımızın məramı Azərbaycan reallıqlarına istinadən obyektiv mövqe ifadə etməkdir.

Hazırda Azərbaycanda işğaldan azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma və bərpa işlərinə, məcburi köçkünlərin öz dədə-baba yurdlarına qayıdışı prosesinə beynəlxalq ictimaiyyətin humanitar və mənəvi dəstəyini gözlədiyimiz bir zamanda revanşist erməni dairələrinin haqsız, yalan və iftira dolu iddialarından qaynaqlanan bu kimi qərəzli hesabatlarla qarşılaşmağımızı ədalətsizlik kimi dəyərləndiririk.

Əfsuslar olsun ki, beynəlxalq hüquq çərçivəsində dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyünü bərpa etmiş Azərbaycana qarşı ABŞ Konqresinin qərarı ilə 907-ci maddənin yenidən tətbiqinin ardınca dini etiqad sahəsinə dair qərəzli hesabat və siyahı gündəmə gəlmişdir. Burada diqqətçəkən məqam bundan ibarətdir ki, 2022-ci ilin analoji hesabatında Azərbaycana dair müsbət tendensiyalar etiraf edildiyi halda, 2023-cü ildə Azərbaycanın hansısa şübhəli izləmə siyahısına salınması nədən vacib sayıldı? Buradan görünən odur ki, Azərbaycanın zəfərləri, dövlət bayrağımızın Xankəndidə ucaldılması, ölkəmizin müstəqil siyasəti müəyyən dairələri narahat edir.

Biz birmənalı şəkildə bəyan edirik ki, Azərbaycanın dini-mənəvi həyatında, dövlət-din münasibətləri müstəvisində heç bir problem mövcud deyil. Hesabatdakı iddiaların əksinə, Azərbaycan hüquqi-demokratik, milli-mənəvi dəyərlərinə ehtiram bəsləyən dünyəvi dövlət olaraq dini icmaların normal fəaliyyətinə hər cür şərait yaradır.

Azərbaycanda multikulturalizm dövlət siyasəti olaraq həyata keçirilir, heç bir fərq qoyulmadan, milli, dini, irqi ayrı-seçkilik edilmədən biz cəmiyyətin ictimai həyatında təmsil olunur, iştirak edirik. Ölkədə fəaliyyət göstərən bütün dini konfessiya və icmalara dövlət tərəfindən hər il müvafiq maddi yardım ayrılır, dini ibadət və ayinlərimiz sərbəst icra olunur, dövlət başçımız bayramlarımıza və mərasimlərimizə özəl diqqətlə yanaşır, ölkədaxili və beynəlxalq tədbirlərdə nümayəndələrimiz birgə iştirak edir. Dini ibadət məkanlarımıza gəlincə, ölkəmizdə müstəqillik dönəmində son illər ərzində tarixi məscid və ziyarətgahlarla yanaşı, kilsə və sinaqoqlar da təmir olunmuş, yeniləri inşa edilmişdir. Heydər Əliyev Fondunun həyata keçirdiyi "Tolerantlıq ünvanı – Azərbaycan" layihəsi çərçivəsində ölkəmizin bölgələrində, o cümlədən xaricdə onlarla tarixi-dini abidə bərpa olunmuş və yenidən qurulmuşdur.

Qeyd olunmalıdır ki, ABŞ-nin Beynəlxalq Din Azadlığı Komissiyası 2022-ci il hesabatında Ermənistan tərəfindən vaxtilə işğal altında olmuş ərazilərdə 403 tarixi və dini abidənin olmasını və 67 məsciddən 63-nün tamamilə dağıdılması, dördünün isə qismən dağıdılmasını və yararsız hala düşdüyünü təsdiq etmişdir. Azərbaycanın 30 ilə yaxın müddətdə işğal olunmuş ərazilərində məscidlərlə bərabər xristian məbədləri və digər bölgələrdəki qədim Qafqaz alban kilsələri qəsb edilmiş, onların mənşəyi dəyişdirilərək qriqoryanlaşdırılmış, Xocavənd pravoslav kilsəsi isə dağıdılmışdır.

Təəccüblüdür ki, bu vandalizm hallarını törətmiş və 30 il ərzində əzəli Azərbaycan torpaqlarını işğal altında saxlamış Ermənistana qarşı Dövlət Departamenti tərəfindən hər hansı qınaq ifadə olunmamış, onu öz "qara siyahısı"na daxil etməmişdir. 2022-ci il hesabatında qeyd olunub ki, Azərbaycan dəfələrlə beynəlxalq səviyyədə, o cümlədən BMT Baş Assambleyasında onilliklər ərzində Ermənistanın Azərbaycanda törətdiyi vandalizm aktlarına hüquqi qiymət verilməsi, UNESCO-nun regionda mədəni irsin qorunması məsələlərinin qiymətləndirilməsi və məsləhətləşməsi üzrə müstəqil, şəffaf missiyasını dəstəkləməyə çağırmış, lakin nə UNESCO, nə də Beynəlxalq Din Azadlığı Komissiyası bu təkliflərə hələ də cavab verməmişdir.

Bizi narahat edən daha bir məsələ 2023-cü il hesabatında erməni dini abidələrinin qorunacağına dair şübhələrin ifadə olunmasıdır. Halbuki ərazilərimiz Ermənistanın işğalında olan dövrdə, müharibə dönəmində və bu gün də Bakının mərkəzi meydanında erməni kilsəsi dövlət tərəfindən qorunmaqdadır, hətta 2010-cu ildə erməni katolikosu şəxsən ziyarət edərək orada ibadət ayini həyata keçirmiş, kilsə nəzdində kitabxana ilə tanış olmuşdur. ABŞ rəsmilərinə obyektivlik naminə Ermənistanda tarixən azərbaycanlılara məxsus dini abidələrin dağıdılması faktlarını araşdırmağı məsləhət görərdik. Sülh müqaviləsi bağlanmasında vasitəçi olmağa iddialı dövlət məsələlərə qərəzsiz yanaşmalıdır.

Hesabat tərtib edənlərin diqqətinə çatdırmaq istərdik ki, Azərbaycanın dinlərarası mühitini, dini vəziyyətini izləmək üçün həyata keçirilən gündəlik tədbirlərdə iştirak etmək, dini konfessiyaların həyat və fəaliyyəti ilə yerində tanış olmaq, işğaldan azad edilmiş ərazilərimizə səfərlər etmək lazımdır. Əminik ki, diplomatik korpus nümayəndələrinin azad olunmuş Şuşaya və s. şəhərlərinə çoxsaylı səfərlərində amerikalı diplomatlar da iştirak etsəydilər, orada məscidlərlə yanaşı xristian və digər dinlərə məxsus məbədlərin necə qayğı ilə bərpa olunduğunun canlı şahidi olardılar və ABŞ diplomatlarının hesabatlarında bu faktlar öz əksini tapardı. Azərbaycanı peyklər vasitəsilə deyil, dost səfərləri ilə öyrənmək saxta, məkrli erməni qarayaxmalarının təsirindən azad, obyektiv münasibət nümayiş etdirməni təmin edərdi.

ABŞ Dövlət katibinin bəyanatı Azərbaycanın nüfuzdan salınmasında, beynəlxalq siyasi və ictimai müstəvidə onun mənfi imicinin yaradılmasında maraqlı olan anti-Azərbaycan lobbiçilərin, eləcə də erməni revanşist təbliğatının nəticəsidir və bölgədə sülhün əldə olunması işinə xələl gətirir.

Aşkar faktdır ki, Azərbaycan 2020-ci ildə əzəli torpaqlarını işğaldan qurtardıqdan və 2023-cü ildə öz qanuni əraziləri üzərində tam suverenliyini bərpa etdikdən sonra erməni kilsəsinin rəhbərləri revanşizmin önündə gedir, aktiv şəkildə nifrət çağırışları ilə etnik dözümsüzlüyü təşviq edir, aqressiv separatizmi dəstəkləyirlər. Erməni dini liderləri öz xalqını sülhə dəvət etmək əvəzinə yeni müharibələrə, özgə ərazilərini işğala çağırırlar ki, bu da fundamental insan hüquq və azadlıqlarına, beynəlxalq hüquqa və dini dəyərlərə ziddir.

Hesabatda ölkəmizin dini kəsimində məzhəb ayrı-seçkiliyi ilə bağlı əsassız iddiaları, o cümlədən həqiqəti əks etdirməyən uydurma "statistikanın" müxtəlif xarici ölkə, beynəlxalq qurum hesabatlarına məkrli şəkildə daxil olunmasını qeyri-etik və təxribat hesab edirik. Dinlərarası harmoniya mühiti, multikultural həyat tərzi, tolerantlıq dəyərləri ilə tanınan Azərbaycanın son dövrlərdə birtərəfli erməni mövqeyindən çıxış edən qüvvələr və dini amildən fəal istifadə edən dairələr tərəfindən hədəfə alınmasını qətiyyətlə pisləyir, bu manipulyasiya hallarına son qoymağa çağırırıq. ABŞ Dövlət Departamentinin Azərbaycanı 2024-cü ildə dini etiqad azadlığı pozulmuş ölkələr qismində xüsusi izləmə siyahısına salmaq barədə qərarını birmənalı şəkildə rədd edirik".

**Şeyxülislam Allahşükür Paşazadə,**
*Qafqaz Müsəlmanları İdarəsinin sədri*

**Milix Yevdayev,**
*Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri*

**Arximandrit Aleksiy,**
*Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi*

**Aleksandr Şarovski,**
*Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri*

**Robert Mobili,**
*Azərbaycandakı Alban-Udi Xristian Dini İcmasının sədri".*

# İSVEÇLİ DEMOKRATLAR İSLAM RƏMZLƏRİNƏ QADAĞA QOYMAQ TƏKLİFİ İLƏ ÇIXIŞ EDİBLƏR



Riksdaqın (İsveç parlamenti) ədliyyə komitəsinin sədri, "İsveç demokratları" ultrasağçı millətçi partiyasının rəhbəri Riçard Yumshof İslam rəmzlərinə qadağa qoymaq təklifi ilə çıxış edib. Lakin partiyanın konkret təklifləri yoxdur.

"İsveç demokratları" İslamın İsveç cəmiyyəti və bütövlükdə Qərb dünyası üçün təhlükə olması barədə fikrini artıq çoxdan və ucadan bəyan edir. Ötən ilin noyabrında partiyanın lideri Cimmi Okesson bildirmişdi ki, antidemokratik ekstremizmi inkişaf etdirən məscidlər dağıdılmalıdır.

"Aypara, minarələr kimi müsəlman rəmzləri cəmiyyətin gözündən uzaqlaşdırılmalıdır", - deyə Okesson qeyd edib.

Onun partiyada həmkarı Riçard Yumshof "Aftonbladet" qəzetinə müsahibəsində analoji fikirlər ifadə edir. O da Okesson kimi İslam və islamçılıq arasında müqayisə aparır. Aypara rəmzinin svastika kimi qanunsuz ola biləcəyi barədə suala Yumshof müsbət cavab verir.

"Aşkardır ki, minarələr, aypara İslamın nəyi təmsil etdiyinin rəmzləridir. Bir çoxları, o cümlədən mənim üçün də bu, çox təhlükəli bir şeyi təmsil edir. Buna bənzər məhdudiyyət sözsüz ki, irəliyə atıla bilən addımdır. "Əgər siz dini tənqid edirsinizsə, o halda dini azadlığa qarşı çıxış edirsiniz" kimi stereotipləri qırmalıyıq", - deyə Yumshof müsahibəsində qeyd edib.

Dini icmalara dəstək idarəsinin başçısı İsak Rayhel İslam rəmzlərindən istifadənin məhdudlaşdırılmasına reaksiya verərək deyib: "Aypara İslamın rəmzidir. Bu, siyasi islamçılığın rəmzi deyil. O, bizim idarənin loqotipində David ulduzu, xaç və hindu rəmzləri ilə yanaşı yer alıb. Onlar birlikdə çoxmillətli İsveçi təmsil edirlər".

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2023

## MOQADİŞO

Somalinin paytaxtı və ən iri şəhəri olan Moqadişo ölkənin əsas liman şəhəri maliyyə, mədəniyyət və sənaye mərkəzidir. Yerli əhali tərəfindən Xamar və ya Hamar adlanan şəhər minilliklər boyu Hind okeanı boyunca ticarət yollarını birləşdirən mühüm liman rolunu oynamışdır. 91 km² olan Moqadişoda təxminən 2.5 milyon insan yaşayır. Şəhər zəngin tarixə malikdir. Yaranma tarixi dəqiq bilinməyən Moqadişo qədim dövrdən bu günə qədər bir çox dövlətin paytaxtı olmuşdur.

IX-XIII əsrlərdə Moqadişo Sultanlığının paytaxtı olan, daha sonra Ajuran imperiyasının tabeliyinə keçən şəhər uzun əsrlər boyu Hind okeanında qızıl ticarətinin mərkəzi olmuşdur. XIV-XV əsrlərdə inkişafının yüksək mərtəbəsinə çatan Moqadişo Şərqi Afrika sahillərinin ən zəngin şəhərlərindən birinə çevrilmişdir. Şəhər XIX əsrdə Moqadişo Geledi Sultanlığı və Omanın Zənzibar sultanlığının birgə nəzarəti altında olmuşdur.

1905-ci ildə İtaliya Moqadişonu İtalyan Somalisinin paytaxtı etdi. Birinci Dünya müharibəsindən sonra şəhərin ətraf ərazisində qısamüddətli müqavimət hərəkatı baş qaldırsa da, şəhər italyanların nəzarəti altına keçdi. Nəticədə çox sayda italyan buraya köçərək məskunlaşmağa başladı. İtalyanların gəlişi ilə kiçik istehsal sahələrində inkişaf baş verdi və yeni şirkətlər yaradılmağa başlanıldı. Həmçinin italyanlar paytaxtın cənub ərazilərində bəzi kənd təsərrüfatı sahələrini yenidən canlandırdılar. 1930-cu illərdə şəhərdə yeni binalar və prospektlər salındı, Moqadişodan Cövhər şəhərinə 114 km uzunluğunda dəmir yolu çəkildi, Əddis-Əbəbə və Moqadişo arasında asfalt yol inşa edildi. 1940-cı ildə İtalyan Somalisinin əhalisi 22000 nəfərə çatmışdı.

1941-ci ilin fevralında ingilis qüvvələri Somalinin bir hissəsini tutdular. 1941-1949-cu illərdə İtalyan Somalisi Britaniya Somalisinin nəzarətində qaldı. 1950-1960-cı illərdə BMT-nin mandatı altında Moqadişo İtaliya tərəfindən idarə olunan "Somali Etibarlı Ərazisi"nin (Trust Territory of Somalia) paytaxtı elan edildi. 1960-cı il 1 iyul tarixində referendumla Britaniya Somalisi ilə İtalyan Somalisi birləşdi və Somali Respublikası yaradıldı. Moqadişo ölkənin paytaxtı elan olundu. İssa Abdullahi tərəfindən yaradılan hökumətdə Hacı Bəşir İsmayıl Yusif Somali Milli Assambleyasının prezidenti, Aden Abdulla Osman Daar Respublikasının Prezidenti və Əbdürrəşid Əli Şermark (sonradan 1967-ci ildən 1969-cu ilə kimi prezident olmuşdur) Baş nazir oldu. 1961-ci il 20 iyulda referendum yolu ilə Somali xalqı 1960-cı ildə tərtib edilmiş yeni konstitusiyanı qəbul etdi. 1969-cu il 15 oktyabrda Las-Anod şəhərində səfərdə olarkən Prezident Şermarka qarşı sui-qəsddən sonra - oktyabrın 21-də hərbi çevriliş baş verdi. Bundan sonra ölkəyə general-mayor Məhəmməd Siad Barre rəhbərlik etməyə başladı. Sonradan Ali İnqilab Şurası ölkəni Somali Demokratik Respublikası adlandırdı, keçmiş mülki hökumətin üzvlərini həbs edildi, siyasi partiyalara qadağa qoyuldu, parlament və Ali Məhkəmə ləğv edildi, konstitusiya qüvvədən düşdü. İnqilab ordusu müxtəlif irimiqyaslı ictimai işlər görməyə başladı və sənaye, torpaq milləşdirildi. Yeni rejim xarici siyasətdə ərəb dünyası ilə



Somalinin ənənəvi və dini əlaqələrin genişləndirdi, nəticədə ölkə 1974-cü ildə Ərəb Dövlətləri Liqasına qoşuldu.

1980-ci illərin sonunda ölkə daxilində Barre rejiminə qarşı etirazlar güclənməyə başladı. 1991-ci ildə vətəndaş müharibəsi başladı, Barre hökuməti devrildi və Somali Milli Ordusu buraxıldı. Bir çox müxalifət qrupu Barre rejiminin devrilməsindən sonra rəqabət aparmağa başladılar. Bu proses 2011-ci ilə qədər davam etdi. Vətəndaş müharibəsi nəticədə Moqadişo başda olmaqla Somalinin bir çox şəhəri böyük zərər gördü.

Moqadişo Somalinin ənənəvi olaraq ticarət və maliyyə mərkəzi olmuşdur. Günümüzdə ölkə ərazisində fəaliyyət göstərən böyük şirkətlərin qərargahları burada yerləşir. Avropa və Amerikaya kütləvi parça idxalı ilə yanaşı, şəhərdə istehsal olunan toxuculuq məhsulları Ərəbistan yarımadasından İran körfəzinə, həm də Afrikanın digər ölkələrinə göndərilir. 2011-ci ildə şəhərdə vəziyyətin sabitləşməsindən sonra ölkə iqtisadiyyatı sürətlə inkişaf etməyə başladı. Bir neçə fabrik, emal zavodu açıldı.

Moqadişo çoxmillətli şəhərdir. Tarixən əsas əhalisi aborigen buşmenlərdən ibarət olmuşdur. İslamın gəlişi ilə orta əsrlərdə ərəb və fars mühacirlərinin ölkəyə axını baş vermişdir. Müstəmləkə dövründə avropalı mühacirlərin, ilk növbədə italyanların köçü ilə Moqadişo kosmopolit şəhərə çevrilmişdir. Bu gün Moqadişoda bir çox millətin nümayəndələri, etnik qruplar yaşayır. 2012-ci ildə şəhərdə təhlükəsizliyin təmin edilməsindən sonra somalili mühacirlər investisiya imkanları və münaqişədən sonrakı yenidənqurmada iştirak etmək üçün Moqadişoya qayıtmağa başladılar.

Moqadişo əhalisinin əksəriyyəti müsəlmandır. İslam Somaliyə hicrətdən bir neçə il sonra gəlməyə başlamışdır. Bu əsasla somalililəri ilk qeyri-ərəb müsəlmanlar adlandırmaq olar. Ölkə ərazisində və paytaxtda dini ibadət yerlərinin çoxu müsəlmanlara məxsusdur.

Şəhərin məşhur ibadət yerlərindən olan ən qədim məscidi "Ərbə-Rukun"dur. Kvadratşəkilli məscidin dörd sütunu olduğuna görə belə adlanır ("Ərbə-Rukun" tərcümədə "dörd sütunlu" deməkdir). Məscid Moqadişonun ilk sultanı Xusra ibn Müabrək əş-Şirazinin əmri ilə XIII əsrdə Fəxrəddin məscidi ilə eyni vaxtda tikilmişdir. Məscidin mehrabının sol tərəfindəki üç hissədən ibarət olan kitabəyə əsasən, demək olar ki, inşasına təxminən 1261-ci ildə başlanılmış və 1268-ci ildə tamamlanmışdır. Nəhəng minarəsi olan məscidin fasadı mərmər plitələrlə örtülmüşdür. Məscidə son vətəndaş müharibəsi zamanı ciddi ziyan dəymiş, Türkiyə Cümhuriyyəti tərəfindən yenidən təmir olunmuşdur.

Somalinin, hətta Afrikanın ən böyük məscidlərindən biri olan "İslam Həmrəyliyi" məscidi Moqadişoda yerləşir. Səudiyyə Kralı Fəhd bin Əbdüləziz əl-Səud Fondunun maliyyə dəstəyi ilə 1987-ci ildə inşa edilmişdir. Məscid 1990-cı illərin əvvəllərində vətəndaş müharibəsinin başlanması ilə əlaqədar olaraq bağlanmış, 2006-cı ildə yenidən açılmışdır.

Həmrəylik məscidinin memarlıq üslubu daha çox Səudiyyə Ərəbistanındakı məscidlərlə əlaqəli olsa da, həmçinin Şərqi Afrika üslubundan bəhrələnib. Bu ziyarətgahın əsas girişinin sağ tərəfində 35 metr hündürlüyündə ağ rəngdə bir minarə var. Ona görə də onu bəzən "Ağ məscid" adlandırırlar. Afrika Buynuzunun ən böyük məscidi olan "İslam Həmrəyliyi" məscidində eyni vaxtda 10.000-ə qədər dindar ibadət edə bilir. Məscidin Somali dənizinə də mənzərəsi var.

Moqadişo 2023-cü ildə İslam mədəniyyətinin paytaxtı elan edilmişdir.

**Hazırladı: Tural Vəlizadə**



# İNDONEZİYANIN GƏLƏCƏK PAYTAXTINDA 61 MİN NƏFƏRLİK MƏSCİDİN TƏMƏLİ QOYULUB

İndoneziya Prezidenti Coko Vidodo ölkənin gələcək paytaxtı Nusantara şəhərində 61 min nəfərlik məscidin təməl daşını qoyub.

Antara agentliyinin məlumatına görə, 940 milyard İndoneziya rupisinə (60 milyon dollar) başa gələcək məscidin inşası 2024-cü ilin sonunadək bitəcək.

İndoneziya prezidenti 2019-cu ildə paytaxtın Cakartadan köçürülməsi ideyasını irəli sürüb. Yeni paytaxt Kalimantan adasındakı boş ərazidə salınacaq. Lakin koronavirus pandemiyası səbəbindən layihənin reallaşdırılmasında ləngimələr baş verib. 2022-ci il yanvar ayında dövlət başçısı yeni paytaxtın Nusantara (Arxipelaq) adlandırılacağını elan edib.

Layihənin həyata keçirilməsi üçün 466 trilyon rupi (32,7 milyard dollar) tələb olunur. Bu məbləğin 19 faizinin dövlət büdcəsindən ayrılacağı, digər hissəsinin isə birbaşa investisiyalar hesabına təmin ediləcəyi açıqlanıb.



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*

## Babaşov Hikmət Firudin oğlu



Şəhid Babaşov Hikmət Firudin oğlu 1977-ci il fevralın 3-də Beyləqan rayonunun Milabad qəsəbəsində dünyaya göz açıb. O, 1984-cü ildə Milabad kənd tam orta məktəbin 1-ci sinfinə daxil olub, 1995-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. Daha sonra təhsilinə Gəncədə yerləşən Kənd Təsərrüfatı Texnikumunda davam edib. Mədəni və nəcib davranışı ilə seçilən Hikmət məktəbdə və texnikumda kollektivin sevimlisinə çevrilib. 1997-ci ilin iyul ayında Beyləqan rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılan Hikmət Silahlı Qüvvələrin Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmət edib. O, hərbi xidməti başa vurduqdan sonra müddətdən artıq qulluq etmək qərarına gəlib. 2000-ci ildə sənədlərini Silahlı Qüvvələrin "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirərək Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissənin havadan müdafiə bölüyündə xidmətə başlayıb. Daha sonra isə xidmətə mühəndis istehkam bölüyündə traktorçu kimi davam edib. Təcrübəli və peşəkar hərbçi olan Hikmət müasir mühəndis-istehkam texnikalarından istifadə edərək ən çətin iqlim və relyef şəraitində döyüş tapşırıqlarını yerinə yetirib. 2011-ci ilin oktyabrında Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndi ərazisində torpaq yolu düzəldərkən onun idarə etdiyi traktor minaya düşüb. Sol ayağından xəsarət alan Hikmət hospitala yerləşdirilib, 6 ay müalicə aldıqdan sonra yenidən xidmətə geri dönüb.

Qəhrəmanımız hərbi qulluq illərində daim fərqlənib, fəxri fərmanlarla, o cümlədən, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli və "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" medallarına layiq görülüb. Hikmət 2016-cı ildə Aprel döyüşləri zamanı da öz işinin öhdəsindən layiqincə gələrək adından söz etdirməyi bacarıb.

Müasir döyüşdə qalib gəlmək bütün qoşun növlərinin birgə səyi nəticəsində mümkündür. Bu baxımdan müasir ümumqoşun döyüşünün mühəndis təminatı da müvəffəqiyyətin əldə edilməsi üçün vacib amillərdəndir. Mühəndis təminatının tələbləri əməliyyatın məharətlə aparılması, düşmənin fəaliyyətinin çətinləşdirilməsi və qarşı tərəfə itkilərin verilməsi üçün əsas rol oynayır. Nəzərə alsaq ki, düşmən nəzarətində olduğu ərazilərdə möhkəmlənmiş və keçilməz mühəndis istehkam qurğuları yaratmışdı. Bu baxımdan Vətən müharibəsində Hikmətin işi daha çətin və məsuliyyətli idi. O, maşın və texnikaların keçməsi üçün yollar açır, gecə-gündüz demədən işləyir, verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirirdi. Hikmət həm də yaşda digər hərbi qulluqçulardan böyük olduğu üçün ona "Baba" deyə müraciət edirdilər. "Baba" gənclərə daim qorxmazlıqdan, vətənpərvərlikdən danışaraq onlarda ruh yüksəkliyi yaradırdı. Döyüşlər başlayan ilk gündən düşmən tərəfindən vurulan yolları bərpa etmiş, hərbi texnikaların yolunu açmış, əsgərlərimiz üçün səngər və sığınacaqlar qazmışdır. Xocavənd rayonu ərazisində yaralı hərbi qulluqçularımızı təxliyə etmək üçün təcili tibbi yardım maşınlarına yol açdıqdan sonra onun idarə etdiyi traktoru vururlar. Xoşbəxtlikdən həmin vaxt Hikmət texnikadan uzaqda olub. Amma bu xoşbəxtlik uzun sürməyib. Noyabrın 8-də səhər saat 5:00 radələrində Şuşa istiqamətində düşmənin dağıtdığı yolu istifadəyə yararlı vəziyyətə gətirmək üçün çalışan Hikmət idarə etdiyi texnika ilə tank əleyhinə minaya düşüb və şəhid olub. O, noyabrın 9-da Beyləqan rayonunun Milabad qəsəbəsində torpağa tapşırılıb.

Hikmət ailəli idi. Onun Emil adlı oğlu, Aydan adlı qızı var.

Şücaəti və cəsurluğu ilə adını Vətən tariximizin şanlı səhifəsinə yazan kiçik çavuş Babaşov Hikmət Firudin oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", və "Xocavəndin azad olunmasına görə" medalları ilə, həmçinin "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

## Babayev Babaxan Əlövsət oğlu



Şəhid Babayev Babaxan Əlövsət oğlu 1996-cı il fevralın 10-da Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Yuxarı Yaycı kəndində dünyaya gəlib. Birinci sinfə Yuxarı Yaycı orta məktəbində başlayan Babaxan daha sonra təhsilini Baki şəhəri Sabunçu rayon Pirşağı qəsəbəsində yerləşən 188 nömrəli orta məktəbdə davam etdirib. Məktəb illərində idmanla məşğul olan Babaxan sərbəst güləş üzrə üç dəfə Azərbaycan çempionu adını qazanıb. 2014-cü ildə orta məktəbi bitirən qəhrəmanımız həmin ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş idarəsinin Şərur rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. O, Azərbaycan Silahlı Qüvvələrinin Muxtar Respublikada yerləşən "N" saylı hərbi hissəsində hərbi xidmət keçib. Hərbi xidmətini başa vurduqdan sonra 2019-cu ildə sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirən qəhrəmanımız Naxçıvan Muxtar Respublikasında yerləşən "N" saylı hərbi hissədə kəşfiyyatçı kimi xidmətə başlayıb. Vətən müharibəsi başlayanda isə Naxçıvanda olmağına təəssüflənərək, döyüşlərdə iştirak etmək arzusunda olub. Xidməti ərzində işgüzarlığı, bacarıqlı olması, işlərini planlı şəkildə icra etməyi, həmçinin komandir və rəislərinin verdiyi tapşırıqları vaxtında, dəqiq yerinə yetirərək, kollektivdə böyük hörmət qazanıb.

2020-ci il 27 sentyabrda Vətən müharibəsi başlanan zaman Babaxan da döyüşlərə qatılacağı günü səbirsizliklə gözləyirdi. Əlahiddə Ümumqoşun ordusunun Xüsusi Təyinatlı Qüvvələri döyüş əmri aldıqdan sonra müharibənin ilk günündən bu anı gözləyən qəhrəmanımız da Naxçıvandan Bakıya yol alan Xüsusi Təyinatlılar dəstəsində olub. O, oktyabrın 11-də Bakıdan cəbhənin Füzuli istiqamətinə göndərilən qrupda olub. Döyüş yolu oktyabrın 14-də Füzulidən başlayan Babaxan Hadrut qəsəbəsinin ətrafında olan yüksəkliklərin, Edişə, Edili, Düdükçü kəndlərinin işğaldan azad edilməsində xüsusi qəhrəmanlığı ilə seçilib. Onun hərbi qulluqçusu olduğu bölmə Füzuli və Xocavənd ərazisində ən çətin tapşırıqların öhdəsindən uğurla gəlib. Oktyabrın 17-də Hadrut qəsəbəsi ətrafında gedən döyüşdə Babaxan yaralanır, ancaq o, yaralı olmağına əhəmiyyət vermir, al-qan içində olan yaralı yoldaşını döyüş bölgəsindən çıxarır. Döyüş yoldaşını xilas etmək istəyən qəhrəmanımız yenidən düşmən gülləsinə tuş gəlir. Şəhidlik zirvəsinə ucalan Babaxan Babayevin cənazəsi 2020-ci il oktyabrın 24-də Qarabağdan Naxçıvana gətirilib. Naxçıvan Hava Limanında izdihamla qarşılanan şəhidimiz ata ocağına izdihamla gətirildikdən sonra Şərur şəhər Şəhidlər Xiyabanında dəfn edilib.

Şəhidimiz subay idi.

Şücaəti ilə adını qəhrəmanlıq tariximizə yazan əsgər Babayev Babaxan Əlövsət oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" və 3-cü dərəcəli "Vətənə xidmətə görə" medalları ilə təltif edilib.

## Babayev Çingiz Sulduz oğlu



Şəhid Babayev Çingiz Sulduz oğlu 2001-ci il sentyabrın 21-də Lerik rayonunun Mistan kəndində anadan olub. Evin tək övladı olan Çingizin uşaqlıq illəri doğulduğu kənddə keçib. Çingiz 2008-ci ildə Mistan kənd natamam orta məktəbinin 1-ci sinfinə gedib. Qəhrəmanımız əziyyətlə təhsil alıb, 8-9 kilometr yolu piyada gedərək qonşu kənddəki tam orta məktəbi bitirib. 11-ci sinfi başa vurduqdan sonra Çingiz Bakı Biznes və Kooperasiya Kollecinə qəbul olub. Çingiz kollecin II kursunda oxuyarkən, 2019-cu il oktyabr ayının 3-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Lerik rayon idarəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. O, Silahlı Qüvvələrin Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissəsinə göndərilib. Vətən Müharibəsi başlayarkən ilk gündən Talış-Suqovuşan istiqamətində döyüşlərdə iştirak edib.

Çingiz oktyabrın 10-da döyüş zamanı yaralanan hərbçi yoldaşını xilas etmək üçün öz zirehli gödəkcəsini çıxararaq ona geyindirib və onun yarasını sarıyarkən yaxınlığa düşən minaatan mərmisindən qəlpə yarası alaraq şəhid olub. Şəhidimiz anadan olduğu Mistan kəndində uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

Çingiz subay idi.

İgidliyi ilə fərqlənən qəhrəmanımız əsgər Babayev Çingiz Sulduz oğlu iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

Hazırladı: **Ramil Hikmət**

# *Yaşıl dünya naminə:* DİNİ TƏLİMLƏRDƏ EKOLOJİ ETİKA



Ekoloji mədəniyyət ümumbəşəri mədəniyyətin bir hissəsidir. O, insanın sosial mühitlə, təbiətlə qarşılıqlı əlaqəsinin xarakterini və səviyyəsini müəyyən edir; ətraf mühitin dərki, ondan istifadə və ətraf mühitə qayğı ilə bağlı müxtəlif fəaliyyət növlərində formalaşan münasibətlər sistemində özünü göstərir. Ekoloji mədəniyyət təkcə ətraf mühitə qarşı şüurlu, rasional münasibət bacarığı deyil, həm də düşüncə tərzi, yenilənmiş dünyagörüşüdür. Çünki hesab olunur ki, ekoloji təhlükəsizliyin təmin edilməsinin vacib şərti düşüncə tərzinin ekoloji cəhətdən "yenidən qurulması"dır. Belə ki, təbiətə daha humanist münasibət istiqamətində ictimai şüurda dəyişiklik olmalıdır.

Şəxsiyyətin ekoloji dünyagörüşü dedikdə baxışlar, qənaətlər, ümumbəşəri dəyərlər, ideallar və prinsiplər, ekoloji imperativin norma və tələbləri, ekologiyaya uyğun davranış və fəaliyyət nümunələri, şəxsiyyətin ekoloji məsuliyyəti sistemi başa düşülür. Xüsusilə son zamanlar ekoloji cəhətdən savadlı mədəni şəxsiyyətin ən mühüm göstəricisi ekoloji məsuliyyətə sahib olmaq hesab edilir. Burada qeyd etmək yerinə düşər ki, adət-ənənələr, miflər, əfsanələr, inanclar insanın bioloji və ekoloji baxışlarının genişlənməsinə töhfə verməklə yanaşı, təbiətlə münasibətlərinə də təsir göstərmişdir. Min illər boyu toplanmış biliklər, ictimai-tarixi təcrübə, ana təbiət haqqında bilgilər əxlaq normaları məcəlləsi kimi xalq adət-ənənələri şəklində bir nəsildən digərinə ötürülmüş və zaman içərisində daha da möhkəmlənmişdir. Bu baxımdan, din də ekoloji etikanın ən mühüm mənbələrindən biri kimi çıxış edə bilər. Belə ki, din insana təkəbbürünün və təbiətlə manipulyasiyalarının ona qarşı çıxa biləcəyini dərk etməkdə yardımçı olur. Din insana həyatın məqsədinin mümkün qədər çox istehlak etmək olmadığı fikrini aşılayır. Texnologiya insana dünyanı yaratmaq və ya məhv etmək üçün fiziki güc verdiyi halda, din insana təmkinli və təvazökar olmağı, eqoizmə qalib gəlməyi öyrədir.

Dünya dinləri və yerli dinlərin hər biri insanlara təbiətlə münasibətdə faydalı olacaq unikal mənəvi dəyərlər və ekoloji-etik qaydalar təklif edir. Ancaq burada bir məsələnin üzərində xüsusilə dayanmaq lazımdır: heç bir dinin müqəddəs kitabında, təlimlərində müasir problemlərin konkret həll yollarını axtarmaq düzgün deyil. Lakin bu kitablarda bəşəriyyət, həyat və kainat haqqında ümumi prinsiplər var. Xüsusilə də səmavi dinlərdə kainatın yaradıcısı və idarəedicisi qəbul edilən Tanrının kainatla insanlar arasındakı əlaqənin necə qurulmalı olduğuna dair verdiyi istiqamətlərdən bu gün yaşanılan problemlərin həlli üçün zəruri prinsipləri əldə etmək mümkündür. Müxtəlif dinlər arasında əhəmiyyətli dərəcədə metafizik, etik, antropoloji və sosial fərqlər olduğunu nəzərə alsaq, bütün dinlərdən götürülmüş ekoloji anlayışların və etik ifadələrin sintezi ekoloji etikanın əsasını təşkil edə bilər. Çünki dünyanın bu cür etikaya ehtiyacı var. Əsas məsələ dinlərin bu əmrlərinin və normalarının gündəlik sosial həyatda necə təqdim olunması və uyğunlaşdırılmasıdır.

Hər bir din sosial institutdur; onların hər birinin mərkəzində bu və ya digər şəkildə Tanrı və insan dayanır. Dinin əsas məqsədi insanın qurtuluşudur (təbii ki, nicat anlayışı hər bir dinin fəlsəfi sisteminə uyğun olaraq dəyişir). Elə Əhdi-Ətiq və Əhdi-Cədidin də əsas süjet xəttini insanların günahdan xilas olması təşkil edir. Ancaq sırf ekoloji dünyagörüşünün formalaşmasında Bibliyanın nə kimi rol oynaya biləcəyi məsələsində motivasiya komponentinə diqqət çəkmək olar. Belə ki, Müqəddəs Kitab bizə "çılpaq" biliklər verməsə də, əxlaq normaları və dünyagörüşümüzdə dəyişiklik etməyimiz üçün motivasiya verir. İnsanın təbiətlə münasibətlərinin mənəvi böhranla əlaqəsini nəzərə alaraq, onun bəzi komponentlərinə, məsələn, ətraf mühitin çirklənməsi, resursların tükənməsi, əhalinin sayının sistemsiz, kor-koranə şəkildə artması və biomüxtəlifliyin azalmasına Bibliya nöqteyi-nəzərindən baxmaq faydalı olardı. Belə ki, Müqəddəs Kitabda təklif olunan yanaşmaların tətbiqi ekoloji etikanın yayılmasına əhəmiyyətli dərəcədə kömək edə bilər.

Müqəddəs Kitabın canlı varlıqların müxtəlifliyini öyrənmək və onları qorumaq zərurəti ilə bağlı ilk buyruqlarına "Yaradılış" kitabının əvvəlində rast gəlirik. Dünyanın yaradılması haqqında hekayədə insanın yaradılmasına diqqət çəkilir və deyilir: "Rəbb Allah bütün çöl heyvanlarını və göydəki bütün quşları torpaqdan düzəltdi. Sonra onları insanın yanına gətirdi ki, onun bunları necə adlandıracağını görsün..." (Yaradılış, 2:19). Buradakı hikmət ondan ibarət idi ki, insan onu əhatə edən aləmin təkcə gözəlliyinə heyran olmasın, həm də ayrı-ayrılıqda hər bir yaradılışın unikallığına və müstəsnalığına diqqət yetirsin, yaradılış aləmindəki bu müxtəlifliyi bilsin, qiymətləndirsin və sevsin. Üstəlik, insan Allah qarşısında, digər canlılar qarşısında məsuliyyətini dərk etməli idi. Təsadüfi deyil ki, insanın Eden bağında məskunlaşması ilə heyvanlara adlarının verilməsi epizodu bir-birinin ardınca gəlmişdir. Çünki insan yer üzünün bütün sakinlərini yaxşı tanımasa, oraya əmək sərf edə bilməz.

Yaradılış hekayəsi ilə nəsli kəsilməkdə olan növlərin qorunması problemi arasında da bəzi paralellər aparmaq olar, çünki bu hekayə onların qorunmasının aparıcı prinsiplərindən birini əks etdirir. "Sonra Allah dedi: "Qoy sular çoxlu canlı məxluqlarla qaynaşsın, yer üstündəki göy qübbəsində quşlar uçsun". Allah nəhəng su əjdahalarını və suda qaynaşan hər növ bütün sürünən canlı məxluqları, həmçinin hər növ bütün qanadlı quşları yaratdı" (Yaradılış, 1:20-21); "Sonra Allah dedi: "Öz surətimizə və bənzərimizə görə insanı yaradaq... Allah dedi: "Budur, yer üzündə toxum verən bütün ot-ələfi və meyvələrində toxumu olan bütün ağacların bəhərini sizə verirəm ki, qidalanasınız" (Yaradılış, 1:25-29). Göründüyü kimi, Yaradan əvvəlcə mühiti yaratmış, daha sonra həmin mühiti ona uyğun orqanizmlərlə doldurmuşdur. Əhdi-Ətiqdə keçən "Hər hansı bir şəhərlə döyüşəndə oranı almaq üçün mühasirəsi uzun çəkərsə, ağacları baltalayıb məhv etməyin..." (Qanunun təkrarı, 20:19) sözləri də Allahın insana verdiyi təbiətin qorunmalı olduğuna dair hökmlər ortaya qoyur.

Uzaq Şərq dinləri də, xüsusən Buddizm təkcə insanlara deyil, ümumiyyətlə, bütün canlılara hörmətin vacibliyini vurğuladığı üçün ekoloji cəhətdən xüsusi diqqət tələb edir. Buddizmə görə, bütün canlılar bir-birindən asılıdır və bir-biri qarşısında mənəvi məsuliyyət daşıyırlar. Bütün varlıqlar, hətta ən kiçik həşəratlar da Budda səviyyəsinə çatmaq potensialına malikdir. Bu fikir özünün parlaq ifadəsini Şərqi Asiyada və Tibetdə geniş yayılmış "ilkin oyanış" və "Budda təbiəti" təlimlərində tapmışdır. Bütün canlı aləm öz daxilində "Budda təbiəti" daşıdığından, insan-təbiət münasibətlərində "hakimiyyət" və "sahiblik" prinsipləri qəbuledilməzdir.

Buddist idrak nəzəriyyəsinin əsas prinsipi epistemoloji dualizmin yanlışlığı, subyektlə obyektin, yəni insanla təbiətin vəhdəti, qarşılıqlı asılılığı ideyasından ibarətdir. Burada ənənəvi subyekt-obyekt dualizmi, "mən" və onu əhatə edən təbiət dixotomiyası "mən"i əhatə edən bütün dünya ilə daim dərinləşən, genişlənən və qovuşan sahə olması fikri ilə əvəzlənir. Bu ideya özlüyündə əhəmiyyətli ekoloji potensiala malikdir. Buddizmdə insan təbiətə qarşı qoyulmur, sadəcə canlıların inkişafının ən yüksək mərhələsini təşkil edir.

Buddist fəlsəfədə etik məsələlər ətraf mühit problemləri ilə sıx bağlıdır. Karma doktrinasına görə, mənfi hərəkətlərin nəticələrindən biri də insanın doğulduğu yerin ekoloji problemləridir. Buddizm hesab edir ki, ətraf mühit, ilk növbədə, insanların mənfi hərəkətləri nəticəsində məhv olur. Buddizmin on əsas əmrini pozan insan təkcə öz ruhuna deyil, həm də təbiətə zərər verir, eyni zamanda özünü qida mənbəyindən məhrum edir. Yalnız əxlaqi prinsiplərə ciddi riayət etmək təbiətin qorunub saxlanmasına zəmanət verə və uğurlu təsərrüfat fəaliyyətini təmin edə bilər. T.V.Ermakova və E.P.Ostrovskinin "Hindistan. Klassik Buddizm" monoqrafiyasında qeyd edilir ki, karma doktrinasına görə, qətl törətmək - flora, fauna və torpağın tükənməsinə; oğurluq - duzlu və turşu yağışlarına, eləcə də toz fırtınalarına; zina - qum və toz yığınlarına; yalan - havanın çirklənməsinə; kobud söz - torpağın münbitliyinin azalmasına və şoranlığa çevrilməsinə; acgözlük - qıtlığa gətirib çıxarır, boşboğazlıq isə ənənəvi mövsümi dövrü pozur və s.

Beləliklə, Buddizm təbiətə, bütün canlılara hörmətin, yaxşı münasibətin vacibliyini vurğulayır. Ancaq belə münasibət iqtisadi fəaliyyəti tamamilə istisna etmir, yalnız onun mahiyyətini dəyişir. Burada iqtisadi fəaliyyət ciddi əxlaqi qaydalar və tələblərlə məhdudlaşdırılır. İnsan ətraf mühitə zorakı və repressiv təsirdən imtina edir.

Buddizm Avrasiyanın bütpərəst kultlarının ekoloji ənənələrini də mənimsəmişdir. Bu, xüsusilə monqol xalqlarının timsalında nəzərə çarpır. Məlumdur ki, şaman dünyagörüşündə həmin ərazinin qüdrətli ruhlarına inam mühüm yer tuturdu. Əfsanəyə görə, həmin ruhlar təbiətdəki tarazlığın qorunmasına ciddi nəzarət edirdilər. İnsanın təbiətə qarşı işlədiyi hər hansı cinayətə (ağacların kəsilməsi, su hövzələrinin çirkləndirilməsi, torpağın şumlanması, hədsiz ov ovlamaq) görə təbiət ruhları tərəfindən cəzalandırılması gözlənilirdi. İnsanla təbiətin qarşılıqlı əlaqəsinə dair bu cür fikirlər Avrasiya çöl məkanının zərif çöl təbiətinin qorunub saxlanmasına kömək etdi.

Dini, folklor, coğrafi, tibbi, fəlsəfi, ədəbi, pedaqoji və psixoloji məlumatlar məcmusu olan "Avesta"da da ilkin əxlaqi, əmək, estetik anlayışlarla yanaşı, ekoloji anlayışlardan da bəhs olunur. Məsələn, Zərdüştilikdə gənc nəsil təbiət hadisələrini əks etdirən, torpaq və onun becərilməsi, maldarlıq, yəni insanların əməli fəaliyyəti ilə sıx bağlı olan prinsiplər əsasında tərbiyə olunurdu. Zərdüştiliyin gənc nəslin tərbiyəsi ilə bağlı xüsusiyyətlərindən biri insanın təmizliyi və sağlamlığı ideyası idi. Ona görə də hər bir zərdüşt hər gün şəxsi gigiyenasına riayət etməklə xəstəliklərə qarşı mübarizə aparırdı. Zərdüşt dininin mənsubundan yaşayış yerini, torpağı, ətraf mühiti və suyu təmiz saxlamaq tələb olunurdu.

"Avesta"da təmizlik gözəllik anlayışı ilə bağlıdır. "Avesta"ya görə, harada təmizlik hökm sürürsə, orada sağlamlıq, xoşbəxtlik, zənginlik hökm sürür. Buna görə də suyu, odu, torpağı təmiz saxlamaq müqəddəs vəzifə sayılır. "Avesta" mətnləri sübut edir ki, əslində, ekoloji tərbiyə məsələsi qədim zamanlarda yaranmışdır. Zərdüştlüyün bəzi ekoloji ideyaları bunlardır: torpağı münbit və təmiz saxlamaq, bitki və ağac yetişdirmək, heyvanlara qulluq etmək. Ümumiyyətlə, "Avesta"da ekoloji anlayışlar əməklə bağlıdır. Ekoloji ideyaların tərbiyəsinə diqqət yetirdikdə burada ekoloji biliklərin, ilk növbədə, insanların gündəlik həyatı ilə bağlı olduğunu görərik.

Zərdüştlükdə təmizlik təkcə insanlara deyil, təbiətə də aid edilir, ətraf mühitin təmizliyinə xüsusi önəm verilir. "Avesta"da deyilir ki, insanla heyvanlar və bitkilər aləmi arasında heç bir fərq yoxdur. Zərdüşt Ahura Məzdadan soruşur: "Ey dünyanın həqiqi yaradıcısı! Yer üzündə ən xoş yer hansıdır?" Ahura Məzda cavab verir: "Həqiqətən, saleh insanın od və süd, arvad və uşaq, gözəl bağlar olan bir ev tikdiyi yerdə, bu evdə mal-qara, od və bütün dünya malları bol olduqda... Doğrudan da, orada, ey Spitama Zərdüşt, o yerdə ki, daha çox taxıl, otlar, bitkilər və yeməli meyvələr becərilir, quru torpaq suvarılır..." Göründüyü kimi, "Avesta"nın bütün təlimlərində ekoloji problemlərin praktiki tərəfinə üstünlük

davamı səh. 12



# Yaşıl dünya naminə: DİNİ TƏLİMLƏRDƏ EKOLOJİ ETİKA

əvvəli səh. 11

verilir. Başqa sözlə, əsas diqqət yer aləminə yönləndirilir. "Avesta"nın bir çox qaydalarında ətraf mühitin qorunmasından, təmizlik və nizam-intizamdan, heyvanlara və bitkilərə qayğıdan bəhs edilir.

Ərəb dilində ətraf mühiti ifadə etmək üçün üç fərqli mənaya gələn "əl-biə" sözündən istifadə olunur. "Əl-biə"nin birinci mənası insanın yaşamaq üçün seçdiyi dağın yamacı və ya çayın qırağı deməkdir. Belə ki, insanlar dağın yamacını seçməklə güclü külək və yağışdan qorunur. Çayın kənarını seçməklə də özləri və heyvanları üçün həyati əhəmiyyət kəsb edən təhlükəsiz yerdə məskunlaşırlar. İkincisi, "əl-biə" ilə yaxşı və ya pis mənada insanın davranışı, mənəviyyatı, iqtisadi vəziyyəti və həyatı nəzərdə tutulur. Üçüncü məna daha ümumidir: insanların yemək, içmək, sığınmaq, geyinmək və davranışları ilə bağlı həyatın bütün sahələrinə aid olan dini və dünyəvi işlərinin, o cümlədən insanların bir-biri ilə və başqa varlıqlarla münasibətlərinin hamısını əhatə edir. Bu son məna insanı əhatə edən bütün canlı və cansız mühit haqqındakı ekologiya anlayışına daha uyğundur.

Qurani-Kərim digər müqəddəs kitablarla müqayisədə təbiətdən və ümumilikdə kainatdan ən çox bəhs edən müqəddəs kitabdır. Quran bu mövzuda məlumat verməklə yanaşı, insanın təbiətlə əlaqəsi məsələsi üzərində də dayanır. Quranda kainatın Allahın varlığının dəlillərindən biri olduğu, insanlar üçün yaradıldığı və mənəvi bir quruluşa sahib olduğu açıqlanır. Qeyd olunan ayələr ekoloji tarazlıq və onun qorunması baxımından diqqəti çəkir: "Şübhəsiz ki, Biz hər şeyi müəyyən ölçüdə (lazım olduğu qədər) yaratdıq" (Qəmər, 49); "Biz yer üzünü döşədik (orada hər şeyi yerbəyer etdik), orada möhkəm dayanan dağlar yerləşdirdik, hər şeydən (bütün meyvələrdən) müəyyən ölçüdə (lazım olan qədər) yetişdirdik" (Hicr, 19); "İnsanların öz əlləri ilə etdikləri (pis əməllər, günahlar) üzündən quruda və suda fəsad (pozuntu) əmələ gələr (bəzi yerlərdə quraqlıq, qıtlıq olar, bəzilərində zərərli yağışlar yağar, zəlzələ baş verər, dənizlərdə gəmilər batar) ki, Allah (bununla) onlara etdiklərinin bir qismini (etdikləri bəzi günahların cəzasını) daddırsın və bəlkə, onlar (tövbə edib pis yoldan) qayıtsınlar" (Rum, 41) və s.

İslam dininə görə, dünyanı gözəlləşdirmək üçün atılan hər addımın, ortaya qoyulan hər davranışın dini dəyəri vardır, bu şərtlə ki, niyyət yaxşı olsun. Hədis qaynaqlarında Məhəmməd peyğəmbərin belə dediyi rəvayət edilir: "Əgər qiyamətin qopacağını bilsəniz və əlinizdə bir fidan olsa, onu qiyamət qopmadan əkməyi bacararsınızsa, əkin!" (Buxari, "Ədəbül-müfrəd", s.143). Bu hədis İslam dinində dünya ilə axirət həyatını bir bütün olaraq qiymətləndirir, dünyanın "axirətin tarlası" olduğu fikrini ifadə edir. Bu hədis müsəlmanların təbiətə və həyata baxışının, ekoloji etikanın formalaşmasında mühüm rol oynayır. Çünki axirətə hazırlaşmaq dünyanı tərk etmək demək deyil. Buna əsasən, müsəlman fərd axirəti üçün çalışarkən istər fərdi, istərsə də ictimai mövqedən dünyaya laqeyd qala bilməz. Dünyanı abadlaşdırmaq, gözəlləşdirmək axirət yurdunu qurmaq deməkdir. Bundan əlavə, yuxarıda qeyd olunan hədisi İslamda ağac əkməyin özlüyündə dini dəyər daşıdığı kimi şərh etmək olar. Çünki qiyamət zamanı əkilən ağacdan nə yer üzündə yaşayanlar, nə də gələcək nəsillər faydalana biləcək. Hədisə əsasən demək olar ki, bu əməlin, yəni ağac əkməyin insanlara faydasından asılı olmayaraq özlüyündə dini bir dəyəri vardır.

İslam insanları təkcə namaz, oruc, zəkat və həcc kimi ibadətlərə yönəltmir. Həm də onu saleh əməllərə, xeyirxah işlər görməyə təşviq edir. Ətraf mühitə qarşı həssas münasibət də "imana yaraşan rəftar" kimi qiymətləndirilir. İslam Peyğəmbərindən nəql olunan başqa bir hədisdə oxuyuruq: "Yeddi şey var ki, insan qəbirdə olsa belə, ondan gələn savab daimi olaraq ona çatır: öyrədilmiş elm, insanların istifadəsi üçün axıdılan su, qazılan quyu, əkilən ağac, inşa edilən məscid, oxunmaq üçün bağışlanan Quran, öldükdən sonra onun üçün dua edəcək xeyirli övlad" (Əhməd ibn Hənbəl, "Müsnəd", V, 415).

Həzrət Məhəmməd ekoloji tarazlığın qorunmasında təkcə ağaclara, yaşıllıqlara deyil, heyvanlara qarşı da şəfqət və mərhəmətlə, heyvan növlərinin qorunmasına həssaslıqla yanaşmağı buyurmuşdur. "Allah rəhm edənə rəhm edər; Yerdəkilərə rəhm edin ki, göydəkilər də sizə rəhm etsinlər" (Əbu Davud, Ədəb, 58) hədisində olduğu kimi insanları heyvanlara yaxşılıq etməyə çağırmışdır.

Ətraf mühitlə əlaqədar ayə və hədislərdən anlaşılır ki, canlı varlıq olaraq insanın həyatı onun çevrəsi ilə münasibətləri ölçüsündə dəyər qazanır. İnsanın dəyəri özünə, ailəsinə və ətrafına qarşı göstərdiyi fəzilətli davranışla üzə çıxır. Bu səbəbdən həm Quranda, həm də Sünnədə insanın yaşadığı mühitlə əlaqəsi və ünsiyyəti İslamın tövhid əqidəsinin tələbi kimi ortaya qoyulur.

Nəticə etibarilə, bu gün tədqiqatçıların gəldiyi ortaq qənaət bundan ibarətdir ki, müasir ekoloji problemlər mahiyyətcə antropoloji xarakter daşıyır, yəni təbiət tərəfindən deyil, insan tərəfindən yaranır. Təbiət öz-özünə deyil, insanın təsiri altında dəyişir və məhvə doğru gedir. Buna görə də ekoloji böhranın yaratdığı sualların cavabları insanın ruhundadır. Bunun üçün hər bir insan ilk növbədə həm cəmiyyətdəki yerini və vəzifələrini, həm də həyatının məqsəd və mənasını müəyyən etməlidir. Onun mənəvi vəziyyəti həm şəxsi həyatında, həm cəmiyyətdə, həm də ətraf mühitə münasibətində həlledici rol oynayır, onlara təsir göstərir.

Qlobal ekoloji fəlakət təhlükəsi dini ənənələri yenidən nəzərdən keçirmək üçün əsas stimul ola bilər. Çünki əksər dini təlimlərdə təbiətin kor-koranə istismarı əxlaq normaları xaricində qəbul edilir. Dini dünyagörüşü təbiətin mühafizəsi baxımından müxtəlif motivlər verə bilər. Belə ki, din insanda əxlaqi keyfiyyətlərin inkişaf etdirilməsi zərurətini vurğulayır. Həmçinin din insanı öz yanlışlarını, səhvlərini görüb etiraf etməyə və onları düzəltməyə təşviq edir.

Haqqında danışdığımız mövzuda ictimai şüurun formalaşması üzrə işlər müxtəlif sosial qrupların xüsusiyyətləri, onların təbiətə münasibəti, digər sosial qruplara təsir dərəcəsi nəzərə alınmaqla aparılmalıdır. Tanrının yaratdığı bütün varlıqların dəyəri haqqında dini-etik təsəvvürlərin inkişafında dini qurumlar və dini maarifləndirmə təşkilatları böyük rol oynayır. Dini təşkilatların inanclı insanlarla birgə səyləri təbiətin mühafizəsinə əhəmiyyətli təsir göstərmək baxımından unikal imkanlar yaradır. Bu yanaşmanın mərkəzində yaradılmışa hörmət bəsləməyə, resurslardan şüurlu istifadə etməyə və ətraf mühitə qayğı göstərməyə yönəldən dini təlimlərdən ilhamlanan dəyərlər dayanır. Bir təşkilatın həmrəylik və inanc əsasında birgə səyləri təkcə icma daxilində deyil, həm də qlobal səviyyədə müsbət dəyişikliklərə səbəb ola bilər. Bu prinsiplərin həyata keçirilməsi təkcə dini təcrübənin deyil, həm də məsuliyyətli vətəndaş olmağın və ümumi evimiz - Yer planetinin qorunmasına müasir yanaşmanın bir hissəsidir.

**Hazırladı: Güney Namazova,**
*Dini maarifləndirmə işinin təşkili şöbəsinin əməkdaşı*

# LOS-ANCELESDƏ "SULTANLA ŞAM YEMƏYİ: ZƏRİF ZİYAFƏT MƏDƏNİYYƏTİ" ADLI SƏRGİ AÇILIB

Los-Anceles İncəsənət Muzeyi (LACMA) "Sultanla şam yeməyi: zərif ziyafət mədəniyyəti" adlı sərgi təqdim edib. Eksponatlar arasında XIII əsrdə Tehranda nəşr olunan kulinar kitabı, zəngin bəzədilmiş bürünc məcməyilər, daş-qaşlı nefrit boşqab və qaşıqlar yer alıb. Bu, kulinar ənənələri kontekstində İslam incəsənətinə həsr olunmuş ilk sərgidir.

Sərginin kuratoru, LACMA-nın Yaxın Şərq sənəti şöbəsinin kuratoru və rəhbəri Linda Komaroffdur. "Başqa mədəniyyətlə tanışlıq bir çoxumuz üçün incəsənət, ədəbiyyat və ya tarix ilə deyil, məhz onun mətbəxi ilə bağlıdır. Müasir qastronomiya marağımız prizmasından İslam kulinariya mədəniyyəti təsviri sənəti daha yaxşı anlamaq və dəyərləndirmək üçün bizə güclü kanal təqdim edir", - deyə L.Komaroff bildirib.

Ekspozisiya özündə doqquz tematik bölməni birləşdirir. Onların hər biri İslam kulinariya mədəniyyətinin zaman və məkana hansısa aspekt və təsirini tədqiq edir.

Sərgidə üç xüsusi instalyasiya, o cümlədən Dəməşq otağı (hicri-qəməri təqvimi ilə 1776-67/1180-ci illər) təqdim olunub. Burada Osmanlının son dövrlərinə aid daxili həyəti olan evin zəngin bəzədilmiş ziyafət otağının gözəl naxışlarla bəzədilmiş oyma taxta divarları var. Möhtəşəm materiallar ailənin zənginliyini və sosial statusunu nümayiş etdirir. Dəməşqdə Osmanlı dövrünün insanlarının yaşadığı evlər zahirdən sadə görkəmli olsa da, içərisində gözəl bəzədilmiş qonaq otaqları olub.

Xüsusi eksponatlardan biri də süfrədir. Ənənəvi İslam aləmində adətən onu yerə sərirlər. Qonaqlara virtual ziyafət üçün gözoxşayan yastıqlar üzərində oturmaq, içərisində hil, qızılgül suyu, portağal gülü və s. olan kiçik ətirli qutuları iyləmək təklif olunur. Sərgilənən sənət əsərləri arasında böyük çeşiddə qabqaşıq, salfet və əl yumaq üçün qab, süfrə ləvazimatları nümayiş etdirilir.

Ən kreativ və maraqlı instalyasiyalardan biri ənənəvi və müasir nahar praktikası arasında əlaqəni qurmaq məqsədilə LACMA-nın sifarişi ilə hazırlanan əsərdir. Rəssam Sadiq Kvayş Əlfraci rəsmlərdən, fotolardan və animasiya filmindən ibarət multimedia instalyasiyası təqdim edib. Bu altıdəqiqəlik film uşaqlıq xatirələrini, hissləri və rahatlığı canlandırır. Əlfraci anasının əllə hazırladığı çörək haqqında nəzərəçarpan xatirələri vizuallaşdırır və qoruyub saxlayır. O, universal ailə



təcrübəsini canlandırır. Ziyarətçilər rəssamın anası tərəfindən hazırlanan ənənəvi İraq çörəyinin reseptini öyrənmək üçün QR-kodu skan etməlidirlər.

LACMA-nın baş direktoru Maykl Qovanın və muzeyin direktoru Uollis Annenberqin sözlərinə görə "Sultanla şam yeməyi" – İslam mədəniyyətinin böyük sərgisidir ki, praktikaya diqqət yetirməklə, bütün mədəniyyətlər üçün ortaq olan ziyafətə yeni üfüqlər açır.

ABŞ, Avropa və Yaxın Şərqdən 30 dövlət və şəxsi kolleksiyadan VII əsrdən XX əsrin əvvəllərinədək olan dövrə aid edilən 250-yə yaxın əşyanı özündə birləşdirən "Sultanla şam yeməyi: zərif ziyafət mədəniyyəti" sərgisi bu il avqustun 4-dək "Resnick Pavilion"da ziyarətçilər üçün açıq olacaq.

# İSLAM DÜŞÜNCƏSİNDƏ ƏTRAF MÜHİT VƏ EKOLOJİ TARAZLIQ

İslam dini insanların qarşılıqlı münasibətləri ilə yanaşı, insan və ətraf mühit münasibətlərini də tənzimləyir. İslamın iki əsas qaynağı olan Quran və Peyğəmbərin hədislərində bu mövzuda çoxlu sayda tövsiyələr və qaydalar öz əksini tapmışdır. İslama görə, dünyada hər şey, o cümlədən ətraf mühit insanın faydalanması üçün yaradılmışdır. Lakin insan bu nemətlərdən istifadə zamanı hüdudsuz azadlığa malik deyil. Belə ki, insan ona təqdim olunan nemətləri ehtiyatsız şəkildə istehlak etməməli, ətraf mühiti qorumalı və ona qayğı ilə yanaşmalıdır. Yəni insanlar ekoloji tarazlığın pozulmaması naminə ətraf mühitlə münasibətlərini tənzimləməlidirlər. İnsanın təbiətlə olan qarşılıqlı əlaqəsi Quran və Peyğəmbərin sözlərinə əsaslanan İslam təfəkküründə öz əksini tapmışdır.

İslam dini cəmiyyətin bütün sferalarında balansın təmin olunmasına əhəmiyyət verir, insanları ifratdan və israfçılıqdan uzaq durmağa səsləyir. Bununla bağlı Allah-Təala Qurani-Kərimdə buyurmuşdur: "Ey Adəm oğulları! Hər bir ibadət vaxtı (namaz qılarkən, məscidə gedərkən və ya təvaf edərkən) gözəl libaslarınızı geyin, yeyin-için, lakin israf etməyin, çünki (Allah) israf edənləri sevməz!" ("Əraf", 31). Bu ayədən də aydın olduğu kimi, İslam dini müsəlmanlara israfçılıqdan uzaq durmağı və tarazlıq içində yaşamağı tövsiyə edir. Bu, onun ətraf mühitlə münasibətinə də aiddir. İslama görə, insanlar ətraf mühitlə harmoniyada yaşamalıdır.

Ətraf mühit dedikdə insanın və bütün canlıların yaşadığı təbii mühit, ekoloji problemlər dedikdə isə təbii mühitin pozulması, heyvan növlərinin nəslinin kəsilməsi və təbiətin çirklənməsi nəzərdə tutulur.

Allah-Təala Qurani-Kərimdə buyurmuşdur: "Şübhəsiz ki, Biz hər şeyi müəyyən bir ölçüdə yaratdıq" ("Qamər", 49). Belə ki, İslama görə, ekoloji tarazlığın pozulması nəticəsində meydana gələn problemlər insanın ilahi nizama əməl etməməsinin nəticəsidir. Ətraf mühitin pozulması barədə başqa bir Quran ayəsində bildirilir: "İnsanların qazandıqları günahlar səbəbilə quruda və dənizdə fəsad ortaya çıxdı. Bu, (Allahın) onların etdikləri əməllərin (cəzasının) bir qismini daddırması üçün idi. Ola bilsin ki, onlar (doğru yola) qayıdarlar" ("Rum", 41).

Allah yer üzünü bərəkətli və məhsuldar yaratmışdır. İnsan isə bu nemətdən düzgün faydalanmalı və onu qorumalıdır. Yəni insan yer üzündə tarazlığa zidd davranmamalıdır. Quranda deyilir: "Yer üzünü döşədik və orada möhkəm dağlar yerləşdirdik. Orada hər şeydən müəyyən ölçüdə (hər cür bitkidən) bitirdik" ("Hicr", 19).

Allah "Rəhmən" surəsində də kainatı və dünyanı tarazlıqda yaratdığını, insanın faydalanması üçün çoxlu nemətlər verdiyini açıqlayaraq, bizə daxilimizdəki ədaləti və tarazlığı pozmamağımızın vacib olduğunu deyir: "Rəhman (mərhəmətli Allah)! Quranı öyrətdi. İnsanı yaratdı. Ona danışmağı öyrətdi. Günəş və ay müəyyən bir ölçüyə görə hərəkət edir. Bitkilər də, ağaclar da Allaha səcdə edir. O, göyü ucaltdı və mizanı (tərəzini) qoydu ki, Tərəzidə həddi aşmayasınız. Tərəzidə ədalətə riayət edin və çəkini əskiltməyin! O, yer üzünü canlılar üçün yaratdı. Orada meyvələr və salxımlı xurma ağacları var. Saçaqlı dənli və xoş ətirli bitkilər var. Elə isə Rəbbinizin hansı nemətlərini inkar edə bilərsiniz?!" ("Rəhman", 1-13).

Allah-Təala müsəlmanlara əməl etməyin vacib olduğu bir çox şərt irəli sürüb. Belə ki, İslama görə, bir insanın Allaha iman gətirdiyini söyləməsi imanının tam olduğu anlamına gəlmir. Allaha iman etmək onun bütün əmrlərini qəbul etmək deməkdir. Bu əmrlər Quran ayələri və Peyğəmbərin kəlamları vasitəsi ilə insanlara çatdırılmışdır. Bunların arasında Allah, insanlar, heyvanlar və yaşadığı mühit qarşısında məsuliyyətlər var. Müsəlmanın həqiqi iman sahibi olması ətrafındakı və təbiətdəki bütün varlıqları qoruması, həmçinin Allahın insana bəxş etdiyi nemətlərə görə şükür etməsi ilə mümkündür.

Qurani-Kərimdə belə buyurulur: "Göyləri və yeri (yoxdan) xəlq edən, zülmətləri və nuru yaradan Allaha həmd (şükür və tərif) olsun! (Bu qüdrəti gördükdən) sonra kafir olanlar yenə (bütləri) öz Rəbbinə tay tuturlar." ("Ənam", 1). İnsanın onunla eyni dünyanı paylaşan digər varlıqlara qarşı bəzi öhdəlikləri mövcuddur: "Yerdə gəzən elə bir heyvan, qanadları (iki qanadı) ilə uçan elə bir quş yoxdur ki, sizin kimi ümmətlər olmasın. (Onlar da sizin kimi bir zümrədir. Allah onlara da ruzi vermiş, əcəllərini əvvəlcədən müəyyənləşdirmişdir. Onlar da öz qabiliyyətlərinə görə Allahın vəhdaniyyətini mədh edib, şəninə tərif deyirlər). Biz Kitabda (Quranda) heç bir şeyi nəzərdən qaçırmadıq (əskiltmədik). Sonra onlar (bütün canlılar, bütün məxluqat) Rəbbinin hüzuruna cəm ediləcəkdir" ("Ənam", 38).

İslam təfəkküründə ətraf mühit, heyvanlar və onlara uyğun ekoloji sistemlə bağlı insanın üzərinə bu cür müfəssəl şəkildə vəzifələr qoyulmuşdur. Belə ki, təbiət insan tərəfindən deyil, Allah-Təala tərəfindən yaradılıb. Bu səbəbdən insan təbiətin hökmdarı deyil, onun istifadəçisi və nəzarətçisi kimi çıxış etməlidir. İnsan bəzən müəyyən qaydalar çərçivəsində təbiətə müdaxilə edib, onu dəyişdirə bilər. Lakin insan bu münasibət zamanı ekoloji normalara əməl etməlidir.

Uca Allah Yer üzünü və təbiəti insan üçün yaratmışdır. Lakin bəzi insanlar onlar üçün yaradılan təbiətdən sui-istifadə istifadə edirlər. Qurani-Kərimdə belə buyurulur: "Biz əmanəti (Allaha itaət və ibadəti, şəri hökmləri yerinə yetirməyi) göylərə, yerə və dağlara təklif etdik. Onlar ona yüklənməkdən (götürüb özləri ilə daşımaqdan) qorxub çəkindilər. Ona insan yükləndi. Həqiqətən, o çox zalım, çox cahildir. (İnsan bu ağır əmanəti götürməklə özünə zülm etdi və cahilliyi üzündən onun çətinliyini, ağır nəticəsini bilmədi)" ("Əhzab", 72). Göründüyü kimi, Uca Yaradan təbiəti insana əmanət olaraq verdiyinə işarə etmiş, bu əmanəti qorumaq üçün insanların məsuliyyət daşıdığını buyurmuşdur. Bu məsuliyyət insanın Allahın müəyyən etdiyi çərçivədə özünə və ətrafındakı digər varlıqlara qarşı yaxşı davranmasını ehtiva edir. Bundan əlavə, Allah Quranda bir çox ayədə xəbərdarlıqlar etmişdir. "Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcəkdir (mükafatını alacaqdır). Kim də zərrə qədər pis iş görmüşdürsə, onu (onun zərərini) görəcəkdir (cəzasını çəkəcəkdir)" ("Zəlzələ", 7-8).

Allah-Təala digər bir ayədə ətraf mühitlə və insanların onu qoruyaraq faydalanması ilə bağlı belə buyurmuşdur: "Göydən su (yağış) endirən Odur. Biz onunla hər bir bitkini yetişdirdik, yaşıl fidanlar göyərtdik, onlardan bir-birinə sarmaşmış (sünbül olmuş) dənələr çıxartdıq. Biz xurma ağacından, onun tumurcuğundan bir-birinə sarmaşmış salxımlar yetişdirdik. (Biz, həmçinin) üzüm bağları, bir-birinə bənzəyən və bənzəməyən zeytun və nar yetişdirdik. (Onlardan hər birinin) bar verdiyi vaxt meyvəsinə və onun yetişməsinə baxın. Şübhəsiz ki, bunda (Allahın Öz qüdrəti ilə yaratdığı bu şeylərdə) iman gətirən bir camaat üçün (Rəbbinizin varlığını sübut edən) dəlillər vardır." ("Ənam", 99). Bu ayələrdə və bəzi başqa ayələrdə də bildirildiyi kimi, Allah insana təbiət vasitəsilə saysız-hesabsız nemətlər bəxş etmişdir. Ona görə də insan bu nemətlərin qədrini bilməli və Allaha şükür etməlidir. Bundan əlavə, insan bu nemətlərə çatmaqda vasitəçilik edən ətraf mühiti qorumalı və ona hörmətlə yanaşmalıdır.

Qurani-Kərimdən başqa Məhəmməd peyğəmbərin hədislərində də ətraf mühiti o cümlədən təbiəti mühafizə məsələlərinə toxunulmuşdur. Peyğəmbər bir hədisində "Hər kim ağac əkərsə, Allah ona meyvələrinin sayı qədər savab verər" deyə buyurmuşdur. Bu hədislər kimi bir çox başqa hədislərdə ağac əkmək tövsiyə edilmişdir. Belə ki, ağac əkmək ekoloji çirklənmə ilə mübarizənin ən təsirli yollarından biridir. Həmçinin ağac əkmək və ətraf mühiti bu şəkildə qorumaq İslamın təriflədiyi gözəl davranışlardan hesab olunur.

Göründüyü kimi, İslam dinində insanların bitkilərə və heyvanlara qarşı münasibətdə xoşrəftara üstünlük verməsi vacib hesab edilmişdir. Məhəmməd peyğəmbərin hədislərində suyun, torpağın və havanın qorunmasına da önəm verilmişdir. Peyğəmbər öz hədisində insanları boş yerə israf etməməyə çağırmamış, hətta axar çayın kənarında dəstəmaz alan şəxsin suyu bu qədər israf etməməsinin lazım olduğunu söyləmişdir.

Hazırda iqlim dəyişikliyi ekoloji problemlər yaratmış, təmiz su mənbələri çirklənmiş və çoxlu sayda təbii fəlakətlər yaşanmışdır. Bütün bu bəlalar insanın təbii mənbələrdən sui-istifadə etməsi və təbiətə laqeyd münasibəti nəticəsində ortaya çıxmışdır. Şübhəsiz ki, təbii resurslardan istifadə zamanı israfçılıq hallarına yol verilməsi də burada zəmin rolunu oynamışdır.

İslamın ətraf mühitə və ekoloji tarazlığa verdiyi önəmi vurğulayan yuxarıdakı ayə və hədislərin sayı kifayət qədərdir. Bir sözlə, Allah insanın bir parçası olduğu kainatı çox mükəmməl bir ahənglə yaratdığına işarə etmiş və insanın bu tarazlığa hörmət etməsini istəmişdir. Bu tarazlığa hörmət etmək ətraf mühitlə ahəngdar yaşamaq və onu qorumaqdan ibarətdir. Ona görə də İslam dini ətraf mühitin və ekoloji sistemlərin qorunması kainatdakı nizamın davamı hesab edir və buna böyük əhəmiyyət verir. Bu baxımdan İslamın təqdir etdiyi rəftar və yanaşmaların yenidən nəzərdən keçirilməsi müasir dövrdə ekoloji problemlərin həlli baxımından əhəmiyyətlidir.

**Hazırladı: Tamerlan Əhmədli**

## DÜŞƏNBƏDƏ DÜNYANIN ƏN BÖYÜK "BUDDA NİRVANADA" HEYKƏLİ NÜMAYİŞ ETDİRİLİR



"Arkeonews" xəbər verir ki, Əfqanıstanda "Taliban" əsgərləri iki nəhəng Budda heykəlini dağıdıtdıqları bir zamanda qonşu Tacikistanda bərpaçılar eyni dövrə aid nəhəng "Uzanmış Buddanı" əsaslı surətdə bərpa edirdilər.

Bu gün Düşənbədəki "Budda" minlərlə turisti cəlb edir. Bu, dünyada ən böyük "Budda Nirvanada" heykəlidir. Düşənbədəki Qədim Əsərlər Muzeyi məhz bu heykəl sayəsində məşhurlaşıb və "Budda" bu gün ölkənin əsas görməli yerlərindən biri hesab olunur. Sovet arxeoloqları uzunluğu təxminən 14 metr olan heykəli 1960-cı illərdə Əfqanıstan sərhədindən 50 mil şimalda, Tacikistanın cənubundakı məbəd xarabalıqları arasında aşkar ediblər.

"Budda Nirvanada" kimi məşhurlaşan, terrakotadan hazırlanmış heykəlin tarixi VI və ya VII əsrlərə gedib çıxır. Abidə İslamın gəlişindən əvvəl Orta Asiya və Əfqanıstanın yüksək dağlıq ərazilərində və uzaq vadilərində Buddizmin hökm sürdüyü dövrə aid edilir.

Tapıldıqdan sonra 30 ildən çox müddət ərzində heykəl bərpası üçün pul olmadığından Tacikistan Memarlıq və Tarix Muzeyinin anbarlarında üç ayrı hissədə saxlanılıb. Tacikistan müstəqillik əldə etdikdən sonra Rusiya Ermitajından bərpaçılar dəvət olunub və xarici qrantlar istənilib. Fransanın "Texnoloji Əməkdaşlıq və İnkişaf Agentliyi" qeyri-hökumət təşkilatı bərpada iştirak edən mütəxəssislərin əməyinin ödənilməsinə kömək edib. 2001-ci ilin əvvəlində ABŞ gil fiqurun bərpasına 30 min dollar ayırıb. Bir az sonra Yaponiya hökuməti də muzeyə 260 min dollar qrant ayırıb. Buddanın son bərpa işləri üçün Vera Fominanın rəhbərliyi altında Ermitajdan olan bərpaçılara Qədim Əsərlər Muzeyindən olan tacik həmkarları qoşulub və nəhayət Buddanın dünyadakı ən böyük gil heykəli 2000-ci il sentyabrın 9-da Qədim Əsərlər Muzeyində ziyarətçilərin qarşısına çıxıb.

Bu gün Tacikistan əhalisinin 97%-dən çoxunu müsəlmanlar təşkil edir. Muzey rəhbərliyinin fikrincə, İslamdan əvvəlki dövrə aid artefaktlara və qədim ibadət obyektlərinə qayğı tolerantlığın və digər dinlərə hörmətin göstəricisidir.

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, insanların mənəvi baxımdan daha sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini 2024-cü ilin yanvar ayı ərzində də davam etdirmişdir.*

**Cari ay ərzində bu qəbildən olan tədbirlər:**



**10 yanvar** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zaqatala rayonunun Lahıc kənd tam orta məktəbində "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; Balakən rayonunun Qazma kənd Arif Mirəliyev adına 2 saylı tam orta məktəbində "İslam dinində sağlam həyat tərzi" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhərinin 43 nömrəli məktəbində "Dini radikalizm və ekstremizə qarşı səmərəli mübarizənin təşkili" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Kürdəmir şəhər "İmam Rza" məscidində "Dini radikalizmlə mübarizədə din xadimlərinin üzərinə düşən vəzifələr" mövzusunda;

**11 yanvar** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayon Qorağan kənd S.Rəhimov adına tam orta məktəbində "Tolerantlıq milli dəyərimizdir" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şabran rayonunda "Multikulturalizm və tolerantlıq milli dəyərimizdir" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sumqayıt şəhəri Dəmirçilər kənd tam orta məktəbində "Dini radikalizm və ekstremizmə qarşı mübarizə" mövzusunda;

**12 yanvar** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonunda "Tolerantlığın Azərbaycan modeli" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağcabədi şəhəri Mirzə Fətəli Axundov adına 3 saylı məktəb-liseydə dini radikalizm, zərərli vərdişlərə və erkən nikaha qarşı mübarizə mövzularında; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Göygöl şəhəri E.Vəliyev adına 5 nömrəli tam orta məktəbində "Yeniyetmə və gənclərin dini radikalizmə qarşı mübarizədə rolu" mövzusunda;

**15 yanvar** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba-Xaçmaz Regional Təhsil İdarəsinin Siyəzən Rayonu üzrə Təhsil Sektorunun və rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə Siyəzən şəhər C.Cabbarlı adına 1 saylı tam orta məktəbdə "Dini ekstremizm: dünyəvi dövlət üçün zərərləri" mövzusunda;

**17 yanvar** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Mingəçevirdə "Xalqımızın milli birliyinin möhkəmlənməsində mənəvi dəyərlərimizin rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər 41 nömrəli tam orta məktəbində "Yeniyetmə və gənclərin dini radikalizmə qarşı mübarizədə rolu" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Goranboy rayonu Safıkürd və Tatarlı kənd məscidi dini icmasının birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərimizin yad təsirlərə qarşı mübarizədə əhəmiyyəti" mövzusunda;

**18 yanvar** – DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsi, Ucar RİH, rayon Polis Şöbəsi və Mərkəzi Aran Regional Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Ucar şəhər 1 saylı liseydə "Dini radikalizmə və insan alverinə qarşı mübarizə" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Balakən rayonu Talalar kənd 1 saylı tam orta məktəbində "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda;



**19 yanvar** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağcabədi rayonu Məmməd Əsədov adına 5 saylı tam orta məktəbində "Dini radikalizm, narkomaniya və zərərli vədişlərə qarşı mübarizə" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Gəncə şəhər 26 saylı tam orta məktəbində "Dini radikalizmə qarşı mübarizə" mövzusunda;

**22 yanvar** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Goranboyda "Dövlət-din münasibətlərinin inkişafında din xadimlərinin rolu" mövzusunda;

**23 yanvar** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Bərdə rayonunda "Qızların təhsil almasının önəmi: dini qaynaqlar nə deyir?" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və



Sumqayıt şəhərində yerləşən Hərbi Polis Bölməsinin birgə təşkilatçılığı ilə "Dini radikalizm, zərərli vərdişlər və intiharın sosial-psixoloji aspektləri" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zaqatala şəhəri Ş.Qurbanov adına 3 №-li tam orta məktəbində "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Samux şəhər 3 saylı tam orta məktəbində "Narkomaniya ümumbəşəri bəladır" mövzusunda;

**24 yanvar** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsi və Göygöl RİH-in birgə təşkilatçılığı ilə B.Alızamanov adına Quşqara kənd tam orta məktəbində "Yeniyetmə və gənclərin dini radikalizmə qarşı mübarizədə rolu" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qubada "Dini radikalizm və ekstremizmlə mübarizə yolları: hüquqi və mənəvi müstəvi" mövzusunda;

**25 yanvar** - DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayonunun Marsan kənd Ə.Abdullayev adına tam orta məktəbində "Multikultural cəmiyyətdə məzhəbçilik və dini təəssübkeşlik meyillərinin yaratdığı problemlər" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ucar rayonu Qarabörk kənd məktəbində "Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Zərdabda "İntihar çıxış yolu deyil" mövzusunda;

**26 yanvar** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sabirabad rayonunda "Milli dövlətçiliyin möhkəmlənməsi: Azərbaycançılıq ideologiyası və mənəvi dəyərlərimiz" mövzusunda; DQİDK-nın Göyçay bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Kürdəmir rayonundakı Peşə Liseyində; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Tərtər rayonunun Gülabatlı kənd tam orta məktəbində;

**29 yanvar** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsinin təşkilatçığı ilə Füzuli rayonu, Horadiz şəhəri "Əhli-Beyt" məscidində "Dini məzhəbçilik meyillərinin milli birliyə və dini təhlükəsizliyə təsiri" mövzusunda;

**30 yanvar** – DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "İmamzadə Ziyarətgah" dini kompleksində "Narkomanlığa qarşı mübarizədə dini və milli-mənəvi dəyərlərin rolu" mövzusunda baş tutub.

Tədbirlərdə DQİDK-nın bölgə şöbələrinin əməkdaşları ilə yanaşı, rayon icra hakimiyyətlərinin, rayon təhsil, gənclər və idman sektorlarının, rayon polis şöbələrinin və digər regional qurumların əməkdaşları, rayonların dini icma sədrləri və din xadimləri, QMİ-nin səlahiyyətli nümayəndələri, o cümlədən müəllimlər və şagirdlər, ictimaiyyət nümayəndələri və gənclər iştirak ediblər.



Çıxışlarda gənclərin radikal və ekstremist cərəyanların təsirinə düşməməsi üçün maarifləndirmə tədbirlərinin əhəmiyyətinə diqqət çəkilib, dini radikalizm və dini ekstremizmin törətdiyi fəsadlardan bəhs edilib, xurafatla mübarizədə təhsilin önəmindən danışılıb. Bu istiqamətlərdə din xadimlərinin, dindarların üzərinə də böyük məsuliyyətin düşdüyü vurğulanıb.

Çıxışlar zamanı Azərbaycanın tarixən müxtəlif dinlərin və xalqların nümayəndələrinin qarşılıqlı hörmət, həmrəylik və dözümlülük şəraitində yaşadığı diqqətə çatdırılıb. Ölkəmizin müxtəlif mədəniyyətlərin qovuşduğu unikal bir məkan olduğu qeyd edilib. Vurğulanıb ki, Azərbaycan dünyəvi dövlət kimi burada yaşayan müxtəlif dinlərin nümayəndələrinin dini etiqad azadlığının təmin olunmasına, dini abidələrin bərpası və tikintisinə xüsusi diqqət ayırır.

Natiqlər milli kimliyimizin qorunmasında mənəvi dəyərlərin mühüm rol oynadığını diqqətə çatdırıblar. Qeyd edilib ki, tarixin bütün dövrlərində millətin və xalqın ictimai şüur səviyyəsini əks etdirən adət-ənənələr həm də mədəni tərəqqinin, əxlaqi xüsusiyyətlərin göstəriciləri kimi çıxış edib. Dövlətimizin milli-mənəvi dəyərlərimizin qorunması və inkişafına hər zaman xüsusi önəm verdiyini söyləyən çıxışçılar Prezident İlham Əliyevin fərman və sərəncamlarının, reallaşdırılan dövlət proqramlarının milli-mənəvi dəyərlərə yad təsirlərin qarşısının alınmasında böyük əhəmiyyət daşıdığını vurğulayıblar.

Erkən nikaha və zərərli vərdişlərə qarşı mübarizə tədbirlərindən, qızların təhsil almasının vacibliyindən danışılan tədbirlərdə gənclərin həmişə diqqətli olmalarının, dini bilikləri doğru və qanuni mənbələrdən əldə etmələrinin önəminə dair fikirlər səsləndirilib.

Natiqlər ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmasını da tədbir iştirakçılarının diqqətinə çatdırıblar. Bərpa olunan enerji mənbələrinin faydalarından, qlobal iqlim dəyişikliyinin təbiətimizə, ətraf mühitə olan təsirindən geniş şəkildə bəhs edilib və dini qaynaqlar işığında ətraf mühitin mühafizəsi məsələsinə toxunulub.

Tədbirlərin yekununda DQİDK-nın sifarişi ilə ərsəyə gəlmiş "Üfuqdakı gələcək" sənədli filmi nümayiş olunub və Dövlət Komitəsi tərəfindən çap edilmiş maarifləndirici ədəbiyyat paylanılıb, həmçinin iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## BÖLGƏLƏRDƏ DİN XADİMLƏRİNİN İŞTİRAKI İLƏ SEMİNAR-TRENİNQLƏR KEÇİRİLİB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgə şöbələri, rayon icra hakimiyyətləri və Qafqaz Müsəlmanları İdarəsinin yerlərdəki nümayəndəliklərinin birgə təşkilatçılığı ilə yanvar ayı ərzində dini icmaların 2023-cü il üçün yekun hesabatı və cari il üçün görüləcək işlərə həsr olunmuş seminar-treninqlər keçirilib. Dini icma sədrləri və din xadimlərinin iştirakı ilə baş tutan tədbirlərdə dini icmaların və din xadimlərinin ötən ilin yekunlarına dair hesabatı dinlənilib. Onlara 2024-cü ildə görüləcək işlərlə bağlı müvafiq tapşırıq və tövsiyələr verilib.

Bu qəbildən olan tədbirlər yanvarın 7-də Sabirabadda; yanvarın 10-da Siyəzəndə; yanvarın 15-də Zaqatalada; yanvarın 16-da Xaçmaz, Saatlı və Qaxda; yanvarın 17-də Qazaxda; yanvarın 24-də Balakəndə; yanvarın 25-də Masallıda; yanvarın 26-da Lənkəranda; yanvarın 31-də Şəkidə təşkil olunub.

Çıxışlar zamanı ötən ildə görülən işlərə dair ətraflı məlumat verilib, məscidlərdə QMİ-nin rayonlar üzrə verdiyi təqvimə uyğun olaraq azanın verilməsinin davam etdirilməsi, dini ayin və mərasimlərin icrası zamanı mövcud qanunvericiliyin tələblərinə riayət edilməsinin vacibliyi vurğulanıb. Cəhaləti, xurafatı, dini fanatizmi və dini radikalizmi yayan qeyri-ənənəvi dini təriqətlərin və radikal dini cərəyanların zərərli təsirinə qarşı cəmiyyət arasında maarifləndirici işlərin görülməsində, milli-mənəvi və İslam dini biliklərinin cəmiyyətimizə düzgün şəkildə təbliğ olunmasında, zərərli və yanlış çıxışlara qarşı sosial şəbəkələrdə aktiv fəaliyyətin göstərilməsində din xadimləri və dini icma sədrlərinin üzərinə mühüm vəzifələrin düşdüyü diqqətə çatdırılıb.

Seminar-treninqlər müzakirələrlə başa çatıb.

## BÖLGƏLƏRDƏ 20 YANVAR ŞƏHİDLƏRİNİN XATİRƏSİ ANILIB



20 Yanvar faciəsinin 34-cü ildönümü münasibətilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) bölgə şöbələri müvafiq qurumlarla birgə regionlarda anım tədbirləri həyata keçiriblər.

Anım tədbirlərində bölgə şöbələrinin və digər qurumların əməkdaşları ilə yanaşı, rayonların dini icma sədrləri və din xadimləri, QMİ-nin səlahiyyətli nümayəndələri, müsəlman və qeyri-müsəlman dini konfessiyaların üzvləri, şəhid ailələrinin üzvləri, eləcə də müəllimlər, şagirdlər, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər, birlikdə bölgələrdəki Şəhidlər Xiyabanını ziyarət ediblər.

Çıxışlar zamanı 20 Yanvar hadisəsinin xalqımızın qəhrəmanlıq tarixində önəmli yer tutduğu vurğulanıb. 20 Yanvar faciəsinin Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsində oynadığı roldan danışan natiqlər bildiriblər ki, bu hadisə Azərbaycan xalqının yaddaşına qürur günü kimi yazılıb. Diqqətə çatdırılıb ki, 20 Yanvar hadisələrindən sonra Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Ümummilli Lider Heydər Əliyev bu vəhşiliyi kəskin şəkildə pisləyib, əliyalın xalqa qarşı törədilən terroru hüquqa, demokratiyaya, insanlığa zidd aksiya adlandırıb. Məhz Ulu Öndərin bu





cəsarətli addımı sayəsində dünyanın mütərəqqi qüvvələri də Azərbaycan xalqının məruz qaldığı bu dəhşətli və amansız terroru qətiyyətlə pisləyib.

Çıxışlar zamanı natiqlər bildiriblər ki, gənclərimiz tarixi həqiqətləri bilməlidir. Yaxın tariximizin öyrənilməsi və araşdırılması vacibdir. 1990-cı ilin 20 Yanvar faciəsi də gələcək nəsillərə olduğu kimi çatdırılmalıdır.

Tədbirlərdə şəhidlərin ruhuna dualar oxunub, Vətən uğrunda qəhrəmancasına canından keçən şəhidlərimizin xatirəsinin xalqımız və dövlətimiz tərəfindən hər zaman ehtiramla yad edildiyi qeyd edilib.

## QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR MƏLUMATLARI

**«Şəki rayonu Kiş kənd məscidi» dini icması**

Qeydiyyat tarixi: 18 iyul 2016-cı il
Qeydiyyat №-si: 100116C – 672

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Aslanov Rövşən Rəsul oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Ağammədov Bayram Tapdıx oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi:** 12 yanvar 2024-cü il

**«Şəki şəhər mərkəzi “Cümə” məscidi» dini icması**

Qeydiyyat tarixi: 07 may 2010-cu il
Qeydiyyat №-si: 100110A2 – 344

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Səmədov Nurəddin Həbibullah oğlu, Güliyev Misgər Yaqub oğlu, Yunusov İbrahim İsaq oğlu, Tağıyev Nazim Məcid oğlu, Həsənov Qəzənfər Məcid oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar.

İbrahimov Arif Bayram oğlu, Quliyev Rauf Rüfət oğlu, Lətifov Nazim İsmayıl oğlu, Qiyasov Şahin Adışirin oğlu, Ağayeva Almas Məmməd qızı dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi:** 16 yanvar 2024-cü il

**Ləğv olunmuş dini qurumlar**

“Yevlax şəhəri “Cümə” məscidi” dini icması
Qeydiyyat tarixi: 09.09.1998-ci il
Qeydiyyat №-si: 235

“Yevlax şəhəri “Cümə” məscidi” dini icması təsisçilərinin 11.01.2024-cü il tarixli, 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul edilmişdir.

Ləğv olunması: 22 yanvar 2024-cü ildə qeydə alınıb.

## XARİCİ TURİSTLƏR AYASOFYAYA GİRİŞ ÜÇÜN PUL ÖDƏMƏLİ OLACAQLAR

Xarici turistlər üçün Ayasofya məscidinə giriş adambaşına 25 avroya başa gələcək. Bu barədə NTV Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin açıqlamasına istinadən xəbər verib. Belə ki, yanvarın 15-dən məscidi ziyarət etmək istəyən əcnəbilər üçün ödəniş sistemi tətbiq olunmağa başlayıb. Türkiyə vətəndaşları üçün isə giriş pulsuzdur. Nazirlik hesab edir ki, ziyarətlərin idarə edilməsinin yeni sxemi uzun növbələrin qarşısını alacaq.

Müvafiq qərar muzeyin dini məkana çevrilməsindən üç il yarım sonra qəbul edilib.

Türkiyənin turizm naziri Mehmet Nuri Ersoy Türkiyə hökumətinin qərarının YUNESKO-nun tövsiyələri ilə bağlı olduğunu izah edib. Nazir əmin edib ki, bu tədbirlər ekskursiyaların keyfiyyətinin yaxşılaşdırılması və məscidə ibadətə gələnlərin rahatlığının artırılmasına yönəlib.

Ayasofya 2020-ci ildə fəaliyyət göstərən məscidə çevrildikdən sonra məbəddə turistlərin müsəlmanların ibadətlərinə mane olmaması üçün marşrutlar təşkil edilib.

Turistlər Ayasofyaya cənub girişindən girəcək və tunel vasitəsilə qalereyaya daxil olacaqlar.

“Ayasofyada QR kod tətbiqi vasitəsilə həyata keçirilən sistem sayəsində ziyarətçilər mobil telefonlarının qulaqlıqları və ya onlara veriləcək birdəfəlik qulaqlıqlar vasitəsilə ibadət edənləri narahat etmədən 23 dildə məlumat ala biləcəklər”, - deyə nazirliyin açıqlamasında bildirilib.



CƏMİYYƏT və DİN
№ 01 (387) YANVAR 2024-cü il

# TEMZA SAHİLİNDƏ ORTA ƏSRLƏRƏ AİD SÜMÜK TƏSBEH MUNCUĞU AŞKARLANIB



Adi insanlar tərəfindən tapılan qədim əşyaların qeydiyyatının aparıldığı "Portable Antiquities Scheme" (PAS) proqram əlavəsində artefaktlar siyahısına orta əsrlərə aid olan və ölümü xatırladan sümük təsbeh muncuğu daxil edilib.

"Guardian" nəşrinin verdiyi xəbərə görə, qədim əşya Kerolayn Nanneli tərəfindən Londonda Temza çayının sahilində tapılıb. Kerolayn London limanı administrasiyasının tələb etdiyi qaydaya uyğun olaraq, zibillərin emalı üzrə 5 illik lisenziyaya malikdir. Onun sözlərinə görə, həmin vaxt arxeoloji qazıntıların axtarışı ilə məşğul olmaq üçün sahil ərazisinə baxış keçirib və bu zaman insan üzü təsvir olunmuş miniatür əşyaya rast gəlib.

Onların tapdığı əşya son orta əsrlərə - təxminən 1450-ci ilə aid olduğu ehtimal edilən və artıq 500 ildən artıq müddət ərzində sümükdən kəsilərək cilalansa da, çay suyunun anaerob lili sayəsində əla vəziyyətdə saxlanılan təsbeh muncuğu imiş. Muncuğun hər iki tərəfində insan üzü təsvir olunub. Bir üzündə çox güman ki, Müqəddəs Məryəmin şəkli və əks üzündə "Momento mori" (Ölüm qəfildir) yazısı olan və əşyanın sahibinə ölümü xatırladan kəllə sümüyü həkk edilib.

Muncuq böyük ölçüdə və çox bahalı olmasa da, sözsüz ki, PAS tərəfindən qeydiyyata alınan və böyük marağa səbəb olan arxeoloji tapıntılardan biridir.

# TƏBİƏTƏ TÖHFƏ VERƏN YAPON QƏZETLƏRİ




Adətən qəzetləri oxuyub qurtardıqdan sonra onu ya nəyisə qablaşdırmaq üçün saxlayırıq, ya da tullantı qabına atırıq. Bəs bu kağızları torpağa əkməyi necə? Heç düşündünüzmü? Yaponlar isə bu haqda fərqli tərzdə düşünüb və düşündüklərini həyata keçirəndə ortaya çox maraqlı, eləcə də səmərəli bir məhsul çıxıb.

"Yaşıl qəzet" adlanan bu vasitə Yaponiyanın ən böyük reklam agentliklərindən biri olan "Dentsu İnc" tərəfindən icad olunub. Qəzetin üzərində ondan son məqamda səmərəli istifadə etmək üçün məlumat yerləşdirilib. Belə ki, insanlar artıq istifadəsi bitmiş qəzetləri kiçik parçalara ayıracaq, daha sonra bu parçaları torpağa əkəcək və sonda isə onları suvara biləcəkdilər. Bir neçə gün sonra isə gözlənilmədən bitki və çiçəklərə sahib olmanın sevincini yaşayacaqdılar. 2016-cı ildə 4 May - "Yaşıllıq günü" üçün nəşr olunan bu qəzetlər ekoloji xəbərlərə həsr olunmuşdu. Qəzetlər yüz faiz bioparçalanmaya meyilli kağız üzərindən çap edilir, əkilən zaman kağıza yerləşdirilmiş toxumlar kəpənəkləri və digər tozlandırıcıları cəlb edəcək çiçəklərə çevrilirlər. Qəzetdə istifadə olunan mürəkkəb isə yetişəcək bitkilər üçün gübrə rolunu oynayırdı. Karbon dioksid emissiyalarını azaltmaq üçün ənənəvi tullantıların idarə edilməsi əvəzinə təkrar emalı və davamlı məhsulları normaya çevirməyi hədəfləyən qəzet istehsalçıları öz devizini həyata keçirdiklərindən çox məmnundur. Deviz isə belə idi: "Mainichi" - təkcə məlumatlandırmaq üçün deyil, həm də qlobal problemləri həll etmək üçün fəaliyyət göstərir".

"Yaşıl qəzet" Yaponiyanın bütün məktəblərində ətraf mühitdə mövcud problemlərə dair böyük bir dərs verdi. Nəşr şirkəti eləcə də kağızın necə əkilməsini nümayiş etdirən ictimai tədbirlər həyata keçirdi, təkrar emal və davamlılıq mövzusunda ciddi müzakirələr aparıldı. Nəşri gündəlik 4,6 milyon insana çatan bu təşəbbüs 700 min dollardan çox əlavə gəlir əldə edə bildi. Bu proses bir daha sübut edir ki, təbiətə töhfə verməklə gələcək nəsillərə daha gözəl bir Yer kürəsi hədiyyə edə bilərik.

## Bakı və Abşeron üzrə namaz vaxtları (Fevral - 2023)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 06:28 | 07:50 | 12:54 | 16:17 | 18:13 | 19:16 |
| 2 | 06:27 | 07:49 | 12:54 | 16:18 | 18:14 | 19:17 |
| 3 | 06:26 | 07:48 | 12:54 | 16:20 | 18:15 | 19:18 |
| 4 | 06:25 | 07:47 | 12:55 | 16:21 | 18:17 | 19:19 |
| 5 | 06:24 | 07:46 | 12:55 | 16:22 | 18:18 | 19:20 |
| 6 | 06:23 | 07:45 | 12:55 | 16:23 | 18:19 | 19:21 |
| 7 | 06:22 | 07:44 | 12:55 | 16:24 | 18:20 | 19:22 |
| 8 | 06:21 | 07:43 | 12:55 | 16:25 | 18:21 | 19:23 |
| 9 | 06:20 | 07:42 | 12:55 | 16:26 | 18:23 | 19:24 |
| 10 | 06:19 | 07:41 | 12:55 | 16:28 | 18:24 | 19:25 |
| 11 | 06:18 | 07:40 | 12:55 | 16:29 | 18:25 | 19:26 |
| 12 | 06:17 | 07:38 | 12:55 | 16:30 | 18:26 | 19:28 |
| 13 | 06:16 | 07:37 | 12:55 | 16:31 | 18:27 | 19:29 |
| 14 | 06:15 | 07:36 | 12:55 | 16:32 | 18:28 | 19:30 |
| 15 | 06:14 | 07:35 | 12:55 | 16:33 | 18:30 | 19:31 |
| 16 | 06:13 | 07:33 | 12:55 | 16:34 | 18:31 | 19:32 |
| 17 | 06:11 | 07:32 | 12:55 | 16:35 | 18:32 | 19:33 |
| 18 | 06:10 | 07:31 | 12:55 | 16:37 | 18:33 | 19:34 |
| 19 | 06:09 | 07:29 | 12:55 | 16:38 | 18:34 | 19:35 |
| 20 | 06:08 | 07:28 | 12:55 | 16:39 | 18:35 | 19:36 |
| 21 | 06:06 | 07:27 | 12:54 | 16:40 | 18:37 | 19:37 |
| 22 | 06:05 | 07:25 | 12:54 | 16:41 | 18:38 | 19:38 |
| 23 | 06:04 | 07:24 | 12:54 | 16:42 | 18:39 | 19:40 |
| 24 | 06:02 | 07:22 | 12:54 | 16:43 | 18:40 | 19:41 |
| 25 | 06:01 | 07:21 | 12:54 | 16:44 | 18:41 | 19:42 |
| 26 | 06:00 | 07:20 | 12:54 | 16:45 | 18:42 | 19:43 |
| 27 | 05:58 | 07:18 | 12:54 | 16:46 | 18:43 | 19:44 |
| 28 | 05:57 | 07:17 | 12:53 | 16:47 | 18:44 | 19:45 |
| 29 | 05:55 | 07:15 | 12:53 | 16:48 | 18:46 | 19:46 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# BARMAQ İZİNİ XATIRLADAN ADA



Adriatik dənizində yerləşən və uzunluğu 23 kilometrdən çox olan divarlara malik bu kiçik ada Xorvatiyaya məxsusdur.

Dalmasiya tipli sahillərdə (sahillərə paralel uzanmış dağların ətəklərində çökək hissələrin dəniz suları altında qalması nəticəsində əmələ gəlir) yerləşən bu ada Baljenak adasıdır. Onun sahəsi 0.14 kvadratmetr, sahil uzunluğu isə 1431 metrdir.

Adada qədim alçaqboylu daş divarlardan ibarət şəbəkənin mövcudluğu səbəbi ilə havadan çəkilən görüntüsünün barmaq izini xatırlatması, bu adanı UNESCO-nun Dünya İrs Siyahısına daxil edilməsi üçün Xorvatiyanın rəsmi qurumlara müraciətinə səbəb olub və müraciət müsbət cavablandırılıb.

Baljenakda bu görüntünün formalaşmasının bir neçə səbəbi var. Yaxınlıqdakı Kapriye adasının bir vaxtlar burada fəaliyyət göstərən sakinləri kənd təsərrüfatı sahələri ilə məşğul olublar. Onlar daşları bir-birinin üzərinə qalaqlamaqla divarı hörürdülər. Bu divarlar isə üzüm bağlarını, zeytun bağlarını və müxtəlif əkin sahələrini bir-birindən ayırmaq üçün ucaldılmışdı. Digər bir səbəb isə bu təsərrüfat sahələrini küləyin dağıdıcı təsirindən qorumaq idi.

Maraqlıdır ki, labirint formalı tikililərə digər Avropa ölkələrində rast gəlinsə belə, Baljenak ən çox barmaq izini xatırladan görüntüyə malik adadır.

Daş divarların XIX əsrdə tikildiyi güman olunur. Həmçinin Osmanlı fəthləri zamanı xristianlar üçün təhlükəsiz sığınacaq yeri sayılan bu adada mövcud divarların bəzi hissələrinin daha da qədim olma ehtimalı vardır.

## Yadigar söz

**Mişel de Monten**
*(fransız yazıçısı və filosofu)*

*Həyatda bir ruhun aydın hədəfi yoxdursa, yolunu itirməsi qaçılmazdır; hər yerdə olmaq, heç bir yerdə olmamaqdır...*

Baş redaktor Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV
Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894